HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 37 (3453) Cümə axşamı / 22-28 sentyabr 2022-ci il Qiyməti 40 qəpik

Laçın şəhərində Azərbaycan Bayrağı ucaldılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb. Sonra dövlət başçısı çıxış edərək bölgədə cərəyan edən hadisələrlə bağlı mühüm açıqlamalar verib. Prezident İlham Əliyev bildirib ki, qırx dörd günlük Vətən müharibəsinin sonunda Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və beləliklə, Azərbaycanın tarixi Zəfəri təsdiqləndi. Bu kapitulyasiya aktının nəticəsində Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı idi və buna əməl etdi.

Qarabağda yaşayan ermənilər müraciət etmişdilər ki...

Dövlət başçısının sözlərinə görə, Laçın və Kəlbəcər rayonlarının bir hissəsi 44 günlük Vətən müharibəsi dövründə azad edilmişdi. Laçının cənub, Kəlbəcərin şimal hissəsini müzəffər Azərbaycan Ordusu işğalçılardan azad etmişdi. Ancaq Laçın şəhəri nəzarətimizdən kənarda qalmışdı.

Bunun da səbəbi o idi ki, Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin ortasından keçir və buna görə biz Laçın şəhərini nəzarətə götürə bilməmişdik: "Ancaq 9 noyabr tarixində aparılan danışıqlar nəticəsində mənim təkidimlə alternativ yolun çəkilişi sənəddə təsbit edildi və 3 il ərzində yeni yolun çəkilişi ilə bağlı razılaşmalar aparılmalı idi. Biz isə razılaşmaları daha tez bir zamanda başa çatdırdıq, Rusiya tərəfi ilə yeni yolun marşrutu təsdiqlənmişdi və təxirəsalınmaz tədbirlər görülərək yeni yolun çəkilişinə başladıq. Bu müddət cəmi bir il 8 ay çəkdi. Yəni, bir il 8 aydan sonra artıq alternativ yol hazır idi. Biz rəsmi qaydada bildiriş göndərmişdik ki, avqustun 2-də yol hazırdır, avqustun 5-də Azərbaycan Laçın şəhərinə və o cümlədən köhnə yola daxil olur və Laçın şəhərinə qayıdır. Ondan sonra bizə Qarabağda yaşayan ermənilər müraciət etmişdilər, xahiş etmişdilər ki, onlara avqustun 25-nə qədər əlavə vaxt verilsin. Baxmayaraq ki, burada qanunsuz məskunlaşma olub, biz yenə də humanistlik göstərərək onlara bu imkanı verdik. Beləliklə, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq. Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır".

Qanunsuz məskunlaşma

Prezident bildirib ki, Laçın şəhəri bütün Laçın rayonu kimi, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalmışdır. Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var.

Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir:

"Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb. Ancaq yenə də bəzi yerlərdə qanunsuz məskunlaşma aparılmışdır. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular. Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır.

Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın ermənileşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Laçın rayonunun və Laçın şəhərinin işğaldan azad edilməsi, bir daha demək istəyirəm ki, tarixi hadisədir. Bizim bütün şanlı Vətən müharibəmiz şanlı tariximizdir. Ancaq xüsusi strateji əhəmiyyətini, çətin relyefi, ağır, soyuq iqlimi nəzərə alsaq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi xüsusi əhəmiyyət kəsb edir. Laçın və Kəlbəcər rayonları 1990-cı illərin əvvəllərində işğal edilərkən faktiki olaraq Ermənistanla Qarabağ arasında coğrafi bağlantı yaradılmışdı. Laçın rayonu 1992-ci il mayın 18-də, Kəlbəcər rayonu 1993-cü il aprelin əvvəlində işğal altına düşmüşdü və beləliklə, ermənilər öz arzularına çatmışdılar. Onlar hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar. Hesab edirdilər ki, buna nail olacaqlar. Görürdülər ki, onlara himayədarlıq edən bir neçə ölkə, onların cinayətlərinə göz yuman, bu məsələlərlə bilavasitə məşğul olan təşkilat buna biganə qaldı. Sanki onlara bəraət qazandırırdılar və daha da azğınlaşırdılar. İşğalın ilkin mərhələsində bizim bütün yaşayış məntəqələrimizi dağıtmışdılar. Ancaq sonra hiss etdilər ki, artıq bunların cinayəti cəzasız qalır, burada qanunsuz inşaat işlərinə başladılar, o cümlədən Laçın şəhərində, o cümlədən Zabux və Sus kəndlərində".

Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil, nə fiziki cəhətdən, nə mənəvi cəhətdən

İkinci Qarabağ müharibəsi olmaya da bilərdi...

Prezident bildirib ki, 26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də işğalçılardan azad edilmişdir: "Yəni, bütün bu tarixi biz heç vaxt unutmamalıyıq. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya ermənilyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır. İkinci Qarabağ müharibəsi olmaya da bilərdi, əgər Ermənistan bizim sözümüzə baxsaydı. Əgər öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmaya bilərdi. 2016-cı ilin Aprel döyüşləri bizim çox böyük qələbəmiz idi, mənəvi cəhətdən və strateji nöqteyi-nəzərdən. O döyüşlər nəticəsində azad etdiyimiz yüksəkliklər bizə əlavə imkanlar yaratdı, o cümlədən İkinci Qarabağ müharibəsində uğurlu yürüşümüzə də zəmin yaratdı.

Aprel döyüşlərindən sonra Ermənistan qorxuya düşmüşdü və faktiki olaraq işğal edilmiş torpaqlardan qoşunları çıxarmağa hazır idi, hətta buna söz vermişdi. Ancaq ondan sonra sözünü tutmadı. Aprel döyüşləri onlar üçün dərs olmadı. Ondan iki il sonra Naxçıvanda "Günnüt" əməliyyatı keçirildi, strateji yüksəkliklər nəzarətə götürüldü. Bu da onlara dərs olmadı. Nəhayət İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edilməsi ilə nəticələndi və müzəffər Azərbaycan Ordusu öz doğma torpaqlarını azad etdi. Biz hesab edirdik ki, nəhayət bu, onlara dərs olacaq. Çünki Ermənistan ordusu tamamilə dağılmış vəziyyətdədir. Müharibə dövründə 10 min fərarisi olan ölkə müharibə aparmaq iqtidarında deyil, nə fiziki cəhətdən, nə mənəvi cəhətdən". Prezidentin sözlərinə görə, biz müharibədən dərhal sonra onlara sülh təklif etdik. Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik:

▸▸ Səh. 2

MÜSAHİB

"O yüksəkliklərdən bizi heç kim çıxara bilməz..."

Şair Ramaldanov,
hərbi ekspert

Sentyabrın 27-də Azərbaycan Ordusunun Ermənistanın hərbi təxribatlarına cavab olaraq həyata keçirdiyi əks-hücum əməliyyatı və 44 gün ərzində əldə olunan Zəfərdən 2 il ötür. Bu gün də Ermənistan və onun sərhəddə hərbi qulluqçu adını daşıyan quldurları təxribatlar törədir, yenə də Azərbaycanı hərbi əməliyyatlara cavab verməyə məcbur edir, başının əzilməsini istəyir. Hərbi ekspert Şair Ramaldanov "Həftə içi"nə müsahibədə mövcud reallığa diqqət çəkib.

Komonda birlikləri bu əməliyyatlarda yüksək qiymətə layiq görüldülər

▸▸ Səh. 3

MÜSAHİB

Ərəstun Oruclu,
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

■ Ukrayna konfliktinin başlıca səbəblərindən biri Rusiyanın böyük Şərq-Qərb dəhlizini Qara dəniz və Ukrayna üzərindən kəsmək cəhdi idi

■ Son baş verənlər, yəni Ermənistanın Qərbdən, xüsusən ABŞ-dan dəstək alması onu göstərir ki, Zəngəzur dəhlizinin açılması tezliklə mümkün olmayacaq

■ Artıq Ermənistan ordusunda da güc yolu ilə dövlət çevrilişi edəcək güclü bir rusiyapərəst komanda qalmayıb

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...

Prezident Kəlbəcər-Laçın yolunda yeni inşa edilən tunellə tanış oldu

GÜNÜN SİTATI

"Rusiya və Ukrayna arasında müharibənin sona çatmasını istəyirik"

Co Bayden,
ABŞ Prezidenti

KARİKATURA

Minalı ərazi

"Pelosinin "araqarışdıran" Ermənistan səfəri

Fərid Şəfiyev,
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru

Bu işdə Fransa və ABŞ da Minsk Qrupunun fəaliyyətinin bərpası məqsədilə müəyyən mənada Ermənistana köməklik edirlər.

▸▸ Səh. 5

STATİSTİKA

■ Cari ilin yanvar-avqust aylarında Azərbaycan MDB ölkələri arasında ən çox Rusiyaya məhsul ixrac edib.

Dövlət Gömrük Komitəsindən bildirilib ki, Azərbaycanın MDB ölkələri arasında ən çox məhsul ixrac etdiyi ölkələr Rusiya, Ukrayna və Belarusdur.

Rusiyaya ixrac olunan məhsulların dəyəri 543,6 milyon ABŞ dolları, Ukraynaya 333 milyon dollar, Belarusa isə 81,3 milyon dollar olub.



▸▸ Səh. 6

28 yaşlı "Əsrin müqaviləsi"

PREZİDENTİN İŞ GÜNÜ

Laçın şəhərində Azərbaycan Bayrağı ucaldılıb

əvvəli 1-ci səhifədə

Ermənistan sülh istəmir

...“Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Biz təklif etdik ki, delimitasiya prosesinə start verək. Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır.

Biz Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik. Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmir yolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmir yolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar”.

Sərhəddə təxribatlar

Dövlət başçısı vurğulayıb ki, son aylar ərzində dəfələrlə bizə qarşı hərbi təxribatlar törədilirdi. Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənmişdir və bu minalar 2021-ci ildə basdırılmışdır, yəni, müharibədən sonra:

”Bu, Azərbaycana qarşı açıq terror hərəkətidir. Müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb. Yəni, bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq.

Nəticə etibarilə sentyabrın 13-də bizə qarşı növbəti təxribat törədilərkən Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq. Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək. Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır, o cümlədən önəmli kommunikasiya xətlərinə nəzarət etməyə imkan verir və biz artıq bu bölgələrdə yerləşirik. Biz otuz il bu sərhədlərdə olmamışıq.

İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq. Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur. Birincisi, əgər sərhəd onların dediyi yerdə idisə sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar. Onlar hesab edirdilər ki, bütün Qarabağ və Zəngəzur onlara qalacaq. Məhz buna görə Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməmişdilər.

Yəni, bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir. Mən yenə də deyirəm, biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının - Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq. Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz.

Sentyabrın 13-də biz yenə də şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah qazilərimizə şəfa versin. Allah şəhidlərimizin yaxınlarına səbir versin. Amma onlar bilməlidirlər ki, şəhidlər Vətən uğrunda şəhadətə yüksəliblər. Biz müharibə istəmirik, istəmirdik. Məhz buna görə 30 ilə yaxın müddət ərzində danışıqlar aparırdıq. Məhz ona görə İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla sülh müqaviləsi imzalamaq istəyirik. Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir.

Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlü-yümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik. Bütün dünyaya göstərə bilmişik ki, nəyə qadirik, torpaqlarımızı güc yolu ilə azad etmişik və bununla fəxr edirik. Bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bununla fəxr edir. Biz şəhidlərimizlə, Ordumuzla, hərbçilərimizlə fəxr edirik və bu gün burada dalğalanan üçrəngli Bayrağımız bizim Zəfərimizin rəmzidir”. ”Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!” - dövlət başçısı bildirib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır,
səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

Rusiyada səfərbərlik qərarı, nüvə təhdidi

Ukraynada Xerson və Xarkov istiqamətlərində ağır məğlubiyyətlər alan Rusiya rəhbərliyi iki gün əvvəl bu ölkədə ələ keçirdiyi ərazilərin özünə birləşdirilməsi ilə bağlı “referendum” qərarı almaqla prosesləri yeni məcraya yönəltdi.

“Məqsəd Donbasın azad olunmasıdır”

Vəziyyətlə bağlı Rusiya prezidenti Vladimir Putinin yeni müraciəti yayımlanıb. Putin ölkədə qismən səfərbərlik elan edib. O, qismən səfərbərlik haqqında sərəncamın imzalandığını bildirib. V.Putinin sözlərinə görə, Rusiyada səfərbərlik fəaliyyətlərinə dünəndən start verilib:

“Vətənimizi qorumaq üçün Müdafiə Nazirliyinin qismən səfərbərlik təklifinin dəstəklənməsi qərara alınıb. Vurğulayıram ki, söhbət qismən səfərbərlikdən gedir. Yalnız hazırda ehtiyatda olan və ilk növbədə Silahlı Qüvvələrin sıralarında, müəyyən hərbi ixtisaslara və müvafiq təcrübəyə malik hərbi xidmətdə olan vətəndaşları çağırıram. Hərbi xidmətə çağırılanlar xüsusi hərbi əməliyyat təcrübəsi nəzərə alınmaqla, mütləq əlavə hərbi hazırlıq keçəcəklər”.

“Xüsusi əməliyyatın əsas məqsədi dəyişməz olaraq qalır. Məqsəd Donbasın azad olunmasıdır”. Vladimir Putin xalqa müraciətində deyib. “Luqansk Xalq Respublikası tam azad olunub, Donetsk Xalq Respublikası isə qismən”, - dövlət başçısı vurğulayıb. “Novorossiyanın tarixi torpaqları artıq Kiyev rejiminin boyunduruğu altında qalmaq istəmir. Zaporojye, Xerson və Donbas sakinləri banderaçıların varislərinin əhaliyə münasibətdə repressiyalarını görürlər”.Vladimir Putin xalqa müraciətində deyib. Eyni zamanda, dövlət başçısı Ukraynanın işğal edilmiş ərazilərində - Xerson, Zaporojye, Donetsk və Luqansk vilayətlərində “referendum”un təhlükəsizliyini təmin etməyi tapşırıb. Putin dünyanı yenidən nüvə silahı ilə təhdid etməyi djə unutmayıb. “Rusiyanı nüvə silahı ilə təhdid edənlər ”külək gülü”ndən çəkinməlidir”. Putin xalqa müraciətində deyib.Onun sözlərinə görə, Qərb Rusiyanın parçalanmasını istəyir: “Onların məqsədi bizi parçalamaq, məhv etməkdir”. Rusiya liderinin sözlərinə görə, Qərb anti-Rusiya siyasətində bütün sərhədləri keçib: “Artıq Rusiyanın sərhədyanı ərazilərinə Qərb silahlarından zərbələr endirilir. NATO Rusiyanın cənubunda kəşfiyyat aparır”.

300 min nəfər orduya çağrıldı

Dünən Rusiyanın müdafiə naziri Sergey Şoyqu da bir sıra açıqlamaları ilə yadda qaldı. “Rusiya Silahlı Qüvvələrinin bütün növ silahları, o cümlədən nüvə silahı prezidentin qarşıya qoyduğu tapşırığın yerinə yetirilməsi üçündür” - müdafiə naziri bildirib. Onun sözlərinə görə, Rusiya Ukrayna ordusu ilə yox, kollektiv Qərblə mübarizə aparır.

Şoyqu bildirib ki, hərbi əməliyyatlar çərçivəsində çətin döyüşlər gedir: ”Ukraynaya böyük miqdarda silah verilir, lakin Rusiya bu silahlarla mübarizə yollarını tapır. Qərb komandanlığı Kiyevdə oturur və Ukraynadakı hərbi əməliyyatlara rəhbərlik edir”.

“Qismən səfərbərlik çərçivəsində ehtiyatda olan 300 min nəfər xidmətə çağırılacaq”. Şoyqu deyib. O, çıxışında Rusiyanın səfərbərlik resursunun, təxminən, 25 milyon nəfər olduğunu xatırladıb: “Qismən səfərbərliyə düşənlərin sayı bu rəqəmin 1 %-dən bir qədər çoxunu təşkil edir”. “Ukraynadakı xüsusi hərbi əməliyyatda 5 937 hərbçimiz ölüb”. Şoyqu deyib. Onun sözlərinə görə, Rusiyanın itkiləri Ukraynadan 10 dəfə azdır: ”Xüsusi əməliyyat zamanı yaralananların 90 %-dən çoxu xidmət yerinə qayıdıb”.

Səfərbərlik əleyhinə ümumxalq mitinqi?

Putinin məlum çıxışından sonra Rusiyada vəziyyət Kremlin gözlədiyi istiqamətdə cərəyan etmir. Rusiya mətbuatı xəbər verir ki, müharibə əleyhdarları qismən səfərbərliyə qarşı ümum-Rusiya mitinqi elan ediblər. Etiraz aksiyalarının əsas təşkilatçısı “Vesna” Gənclər Hərəkatıdır. Fəallar vətəndaşları dünən Moskva vaxtı ilə 19:00-da yaşadıqları şəhərlərin mərkəzində toplaşmağa çağırıb. Onlar aksiyanı “Məzarlaşmağa yox” adlandırıblar. “Minlərlə Rusiya kişisi - atalarımız, qardaşlarımız və ərlərimiz müharibənin ətçəkən maşınlarına atılacaq. Nə üçün öləcəklər? Analar və uşaqlar niyə göz yaşı tökəcək? Putinin sarayı üçün? İndi müharibə, həqiqətən, hər evə, hər ailəyə gələcək. Hakimiyyət deyirdi ki, ancaq “peşəkarlar” döyüşür və onlar qalib gələcəklər. Məlum oldu ki, onlar qalib gəlmirlər və məhbuslar cəbhəyə cəlb olunmağa başlayıb. İndi də səfərbərlik elan olunub. Beləliklə, vəziyyət son dərəcə ağırdır. Müharibə artıq “orada” deyil - ölkəmizə, evlərimizə gəlib, qohumlarımız üçün gəlib. Beləliklə, onlar Rusiyanı dəhşətli qırğınlara, təcridə və yoxsulluğa sürükləyən Putin rejiminin səhvlərini düzəltmək üçün ölməlidirlər. Hər gün səfərbərliyə ehtiyac olduğunu deyən deputatlar, məmurlar sağ-salamat isti kreslolarında qalacaqlar. Hesab edirik ki, onları səfərbər etmək və Ukraynaya göndərmək lazımdır - qoy xəstə fantaziyaları üçün ölsünlər və adi oğlanları ölümə göndərməsinlər”, - hərəkatın bəyanatında vurğulanıb.

Səfərbərlikdə qaçan ruslar Azərbaycana gəlir

Moskvadan İstanbula, İrəvana, Bakıya və giriş üçün viza tələb olunmayan digər qonşu ölkələrə ən yaxın birbaşa reyslərin biletləri tükənib. Hafta.az bildirir ki, aviaşirkət məlumatları və bilet toplayıcı internet saytları RBC tərəfindən təhlil edilib.

Aviasales xidmətinin məlumatına görə, indi Moskvadan İstanbula birbaşa uçuş üçün bileti sentyabrın 23-dən tez əldə etmək olmur və onun qiyməti 76 min rubl təşkil edir. Uçuş Aeroflot tərəfindən həyata keçirilir. Aviaşirkətin saytında ən yaxın birbaşa uçuş sentyabrın 25-dir (58,6 min rubl). Türk Hava Yollarının saytında oxşar reys üçün bileti sentyabrın 24-dən tez olmayaraq 81 min rubldan çox qiymətə almaq olar. Moskvadan İrəvana birbaşa uçuşlarda da vəziyyət oxşardır. Sentyabrın 23-də Aeroflot saytında yalnız biznes sinif biletləri var. Aeroflotdan Bakıya birbaşa reysə də sentyabrın 23-dən tez bilet almaq olmayacaq.

Kremlə aylarla vaxt lazımdır

Putinin məfərbərlik haqda qərarı dünyada Rusiya ordusunun bu hazırlığı necə keçəcəyi ilə bağlı çoxsaylı proqnozların verilməsinə səbəb olub.

BBC-nin diplomatik işlər üzrə müxbiri Paul Adams hesab edir ki, hətta müəyyən hərbi təcrübəsi olan ehtiyat qüvvələri səfərbərliyə almaq, onları təchizatla təmin etmək və döyüş qrupları yaratmaq aylar tələb edir. Onun sözlərinə görə, Rusiya yaradılan yeni qüvvələri hissə-hissə döyüş bölgəsinə göndərməsə, onlar yaz aylarınadək müharibəyə cəlb edilməyəcək. Müharibənin 7 ayı ərzində Rusiyanın böyük təchizat itkisi yaşadığını deyən Paul, Moskavanın yeni qüvvələri zəruri təchizatla təmin etməkdə çətinlik çəkəcəyi qənaətindədir. Onun fikrincə, Ukrayna Qərbin mükəmməl texnikasından istifadə edərək, Rusiyanın silah-sursat anbarlarını partladıb, komando məntəqələrini darmadağın edib və arxa cəbhədə yerləşən hərbi bazalarını göyə sovurub. ”Kreml hazırda silahlı qüvvələri zəruri hərbi ləvazimatlarla təmin edə bilmir və ordunun mənəvi vəziyyəti də aşağıdır”, - Paul Adams deyib.

Guardian nəşrinin xarici xəbərlər üzrə müxbiri Luke Harding isə hesab edir ki, qismən səfərbərlik Rusiya ordusundakı canlı qüvvə qıtlığını aradan qaldıra bilməyəcək. ”Eyni zamanda biz Vladimir Putini vəzifədən uzaqlaşdırmaq üçün oliqarxların, generalların və Kreml rəsmilərinin saray çevrilişi edəcəyini gözləyirik. Təəssüf ki, bu baş verməyəcək”, - Harding bildirib.

Azərbaycandan baxış

■ Politoloq Elxan Şahinoğlu ”Həftə içi”nə müsahibəsində bildirib ki, Rusiya prezidenti Vladimir Putin Ukraynaya qarşı müharibəyə başladığı fevralın 24-dən bu yana səfərbərlik elan etməkdən çəkinirdi. Çünki Kreml sahibinin “xüsusi əməliyyat” adlandırdığı işğalçı müharibəni az qüvvə ilə yekunlaşdırmağı planlaşdırırdı:

”Səfərbərlik elanı Kreml sahibinin “xüsusi əməliyyat” nağılına rəsmən son qoydu. Putin bir neçə ay əvvəl “müharibəyə müxtəlif dövlətlərdən muzdluları cəlb edə bilərik” dedi, ancaq bu da onun ordusuna uğur gətirmədi. Muzdular belə Ukrayna müharibəsində ölmək istəmədilər. Putin belə vəziyyətdə səfərbərlik elan etmək məcburiyyətində qaldı. Ancaq səfərbərlik də onun ordusunu xilas etməyəcək, müharibəyə göndərəcəyi gəncləri ölüm gözləyir. Putinin səfərbərlik qərarı rus cəmiyyətinin xoşuna gəlməyəcək, hələ ki, susurlar, ancaq müharibənin uzanması və artan itkilər etiraz səslərini artıracaq. Hamı anlayır ki, bu Rusiyanın deyil, Putinin şəxsi müharibəsidir.

Kreml sahibi Vladimir Putinin səfərbərlik elanından sonra Rusiya vətəndaşları kütləvi şəkildə Bakı, İstanbul, İrəvan təyyarə reyslərinə hücum çəkiblər, biletlərin bahalaşmasına baxmayaraq tamamını alıblar. Rusiya vətəndaşları açıq-aşkar mənasız müharibədə ölmək istəmirlər. Maraqlıdır, tutaq ki, Rusiya vətəndaşları bir müddət Bakıda, İstanbulda və İrəvanda yaşadılar, otellərdə qaldılar, restoranlarda nahat etdilər, bəs sonra? Müharibə 4 ay da davam edə bilər, bir il də uzana bilər. Rusiya vətəndaşları qaldıqları ölkədə nə qədər yaşaya bilərlər ki? Maliyyələri bitəndə nə edəcəklər? Rusiya prezidenti Vladimir Putin deyib ki, ölkəsinin ərazi bütövlüyünə qəsd edənə qarşı nüvə silahından istifadə edəcək və bu blef deyil. Yəni Kreml Ukraynanın işğal altında saxladığı Zaporojyedə, Xersonda, Donetskdə və Luqanskda saxta referendum keçirib bu bölgələrin Rusiyaya birləşdirdikdən sonra Kiyevi nüvə silahıyla hədələyəcək. Özünə hörmət edən heç bir dövlət adı çəkilən ərazilərin Rusiyaya zorla birləşdirilməsini tanımayacaq. Ukrayna əks-hücumlarını davam etdirərsə Putinin reaksiyası necə olacaq? Bu Putinin şəxsi müharibəsi olduğundan nüvə silahının düyməsinə də basa bilər. Yeganə ümid ətrafının onu dayandırmasınadır”.

■ Gillian Keegan, Böyük Britaniyanın xarici işlər naziri:

- Vladimir Putinin Qərbi çoxlu silahlara malik olması ilə təhdid etməsi dəhşətlidir. Lakin Putinin müraciəti yalanlarla doludur. Bu çox ciddi təhdiddir, ancaq daha əvvəl deyilmiş hədə-qorxulardan biridir. Rusiyanın ehtiyatda olan qüvvələrinin bir hissəsinin səfərbərliyə alınması narahatedici eskalasiyadır.

■ Bridget Brink, ABŞ-ın Ukraynadakı səfiri

Saxta referendum və səfərbərlik zəiflik əlamətidir. ABŞ heç vaxt Rusiyanın zor gücü ilə ilhaq edilən Ukrayna ərazisinə qarşı iddialarını tanımayacaq və hər zaman Ukraynanın yanında olacaq.

■ Şarl Mişel, Avropa İttifaqı Şurasının Prezidenti:

- Bu müharibədə bir aqressor - Rusiya və bir aqressiyaya məruz qalan ölkə - Ukrayna var. Avropa İttifaqı Ukraynaya dəstək vermək missiyasına sadiqdir.

■ Aleksey Navalnı, Rusiya müxalifətinin lideri:

- Bu qərar Putinin şəxsi gücünü qorunması naminə kütləvi faciə, kütləvi ölümlə nəticələnəcək. Putin qonşu ölkənin ərazisinə girdi insanları öldürdü və indi də böyük sayda rus vətəndaşlarını müharibəyə göndərir.

■ Piter Stano, Avropa İttifaqının sözçüsü:

- Vladimir Putinin Ukraynanın atom elektrik stansiyaları ətrafındakı nüvə oyunları, nüvə silahından istifadə ilə hədələmələri son dərəcə təhlükəlidir və tamamilə qəbuledilməzdir. Zaporojye AES-dəki vəziyyət və Rusiyanın onun ətrafında hərbi hərəkətləri ilə bağlı Putin öz nüvə oyununu oynayır. O, nüvə elementindən öz terror arsenalının bir hissəsi kimi istifadə edir. Bu, qəbuledilməzdir. Nüvə silahından istifadə təkcə Ukrayna üçün yox, bütün Avropa və Asiya üçün təhlükəlidir. Beynəlxalq ictimaiyyət bunun qarşısını almaq üçün Rusiyaya təzyiq göstərməlidir. Bu mövzu BMT Baş Assambleyasında müzakirə olunmalıdır. Dünyanın siyasi liderləri bu böhrandan çıxmaq və Ukrayna da daxil olmaqla, sülhü bərpa etmək üçün bir yol tapmalıdırlar.

■ Mövlud Çavuşoğlu, Türkiyənin xarici işlər naziri:

- Rusiyanın qismən səfərbərlik qərarı və Luqansk, Donetsk, Xerson və Zaporojye vilayətlərində referendum elan edilməsi durumun ciddiliyini göstərir. Ukrayna müharibəsində humanitar böhranın dərinləşməsinin qarşısını almağa çalışırıq. İndi yeni reallıqlar yaranıb. Müharibə uzandıqca konkret həllə nail olmaq çətinləşir. Amma diplomatiya hələ də yeganə dialoq yoludur.

■ Yens Stoltenberq, NATO Baş katibi:

- NATO ölkələri Rusiyaya təzyiqi artırmaq və yeni sanksiyalar tətbiq etmək niyyətindədir. Biz Rusiya nüvə qüvvələrinin hazırlıq vəziyyətində hələ ki heç bir dəyişiklik müşahidə etməmişik. Amma durumu diqqətlə izləyirik. NATO ölkələri özlərinə və Kiyevə silah tədarükünü artırmaq üçün hərbi-sənaye müəssisələrlə fəal danışıqlar aparır. Ukrayna üçün danışıqların nəticəsi onun döyüş meydanındakı uğurundan asılı olacaq. NATO Rusiya ilə qarşıdurmaya can atmır. Biz ehtiyatsız nüvə ritorikasına əl atmayacağıq.

■ Olaf Şolts, Almaniyanın kansleri:

- Rusiyanın qismən səfərbərlik elan etməsi Ukraynada uğursuzluğunun göstəricisidir. Rusiyanın bu addımı Ukraynanın ərazi bütövlüyü və suverenliyini dünyanın bir çox ölkələrinin, xüsusən də Almaniyanın genişmiqyaslı və ciddi dəstəyi sayəsində çox effektli müdafiə etməsinin əlamətidir.

■ Con Kirbi Ağ evin koordinatoru:

- Rəsmi Vaşinqton Rusiya Prezidenti Vladimir Putinin nüvə silahından mümkün istifadə ilə bağlı dediklərini ciddi qəbul edir. Biz bunu ciddi qəbul edirik. Ehtiyac yaranarsa, biz onların strateji konfiqurasiyasını izləyərik.

■ Volodimir Zelenski, Ukrayna Prezidenti:

- Qərb Putinin hədələrinə boyun əyməməlidir. Rusiyanın nüvə silahından istifadə edəcəyinə inanmıram. Putin Ukraynanı öz əsgərlərinin qanında boğmaq istəyir.

■ Van Venbin, Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi:

Çin hökuməti Ukraynadakı münaqişə tərəflərini atəşin dayandırılmasına və münaqişəni dialoq yolu ilə həll etməyə çağırır. Çinin Ukrayna böhranı ilə bağlı mövqeyi ardıcıl və aydındır. Bütün tərəfləri döyüşlərə son qoymaq və bütün tərəflərin qanuni təhlükəsizlik narahatlıqlarını həll etmək yollarını tapmaq üçün dialoq və məsləhətləşməyə çağırırıq. Çin beynəlxalq ictimaiyyətin danışıqlar üçün uyğun məkan və şərait yaradacağına ümid edir.

■ Konstantin Kosaçev, Rusiya Federasiya Şurasının vitse-spikeri:

Referendumdan sonra ərazilərə hücum bütün nəticələri ilə Rusiyaya hücum demək olacaq. Referendumdan sonra buradakı insanları qorumaq bizim haqqımız yox, borcumuz olacaq. Bundan sonra Qərbin rəyinə əhəmiyyət verilməyəcək.

■ Mixaylo Podolyak, Ukrayna rəsmisi

Ukraynanın məhv edilməsini tələb edənlər səfərbərlik əldə etdilər. “Üçgünlük müharibə”nin 210-cu günü gedirdi. Ukraynanın məhv edilməsini tələb edən rusiyalılar, nəhayət, əldə etdilər: 1. Səfərbərlik; 2. Sərhədlərin bağlanması, bank hesablarının dondurulması; 3. Fərariliyə görə həbsxana; 4. Özəl Hərbi Şirkətlərdəki döyüşçülər üçün xüsusi məhbus dəstələri. Hər şey hələ də plana uyğun gedir, deyilmi? Həyatın çox gözəl yumor hissi var.

✍ Azad Əliyev

Müsahib

"O yüksəkliklərdən bizi heç kim çıxara bilməz..."

Sentyabrın 27-də Azərbaycan Ordusunun Ermənistanın hərbi təxribatlarına cavab olaraq həyata keçirdiyi əks-hücum əməliyyatı və 44 gün ərzində əldə olunan Zəfərdən 2 il ötür. Bu gün də Ermənistan və onun sərhəddə hərbi qulluqçu adını daşıyan quldurları təxribatlar törədir, yenə də Azərbaycanı hərbi əməliyyatlara cavab verməyə məcbur edir, başının əzilməsini istəyir. Hərbi ekspert Şair Ramaldanov "Həftə içi"nə müsahibədə mövcud reallığa diqqət çəkib.

Şair Ramaldanov,
hərbi ekspert

- Sentyabrın 27-də Azərbaycan Ordusunun Ermənistanın hərbi təxribatlarına cavab olaraq həyata keçirdiyi əks-hücum əməliyyatından 2 il ötür. Mövcud vəziyyəti necə təhlil edərdiniz?

- İki il əvvəl, sentyabrın 27-də Azərbaycan Ordusu keçirdiyi əks-hücum əməliyyatını hücum əməliyyatına çevirərək, Ermənistanın ərazilərimizdə postlar quran işğalçı qüvvələrini darmadağın edərək ərazi bütövlüyünü bərpa etməyə nail oldu. Heç şübhəsiz, qalibiyyətlə başa çatan bu əməliyyat başda müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin rəhbərliyi, ordu-xalq birliyi ilə baş tutdu.

Biz torpaqlarımızı erməni vandallarının işğalından azad etməyə nail olduq. Erməniləri torpağımızdan qovsaq da, düşmənlərin işğal dövründə o torpaqlara basdırdığı minalar hələ də Azərbaycan xalqı, həmin ərazilərdə yaşayan mülki əhali üçün təhlükə olaraq qalır. Biz hələ də ermənilərin Qarabağda hərbi və mülki insanlarımıza zərər yetirməsi faktları ilə üzləşirik və mövcud vəziyyətə baxanda təəssüflə qeyd etməliyəm ki, hələ bu proses davam edəcək. Erməni hərbi cinayətkarlarının torpaqlarımızda basdırdığı mina sahələri çox genişdir. Uzun müddət işğal altında qalan o yerlərdə həm I Qarabağ savaşı, həm II Qarabağ savaşı zamanı minalar basdırılıb. Ona görə də bizə əziz olsa da, o yerlərə can atsaq da, azad olunmuş torpaqların hər qarışı bu gün də təhlükəlidir və diqqətli olmalıyıq. İşğaldan sonra Qarabağda aparılan bütün bərpa işləri müvafiq qurumlarla razılaşdırılmalı və onların təlimatı tam şəkildə yerinə yetirilməlidir.

Bu gün dünyanın ikili standartlarının şahidiyik. Bizim 30 illik işğal dövründə beynəlxalq təşkilatların, regionda maraqları olan dövlətlərdən gördüyümüz münasibət bu gün torpaqlar azad ediləndən sonra da davam edir. Beynəlxalq aləm, təşkilatlar, insan azadlıqlarından danışan dövlətlər Azərbaycan ərazilərinə basdırılan mina sahələrinin xəritələrini almaqda "acizlik çəkir". Ermənilərin döyüş getməyən ərazilərdə daşı-daş üstündə qoymaması, tarixi abidələrimizi yerləyeksan etmələri, qəbiristanlıqların dağıdılıb üstündə kənd təsərrüfatı üçün istifadə etmələri, kənd salınması və digər əməllərin hamısı misli görünməyən vandal aktlarıdır. Müharibədən, atəşkəsdən 2 il keçməyinə baxmayaraq, dünya buna susur. Hələ bu günə qədər biz Ermənistanın Azərbaycanda törətdiyi heç bir cinayət faktı üzrə beynəlxalq məhkəmələrdə, ya da başqa kürsülərdə etdiyi, törətdiyi əməllərə görə məsuliyyətə cəlb edildiyini, ondan etdiklərinin cavabının soruşulduğunu müşahidə etmədik. YUNESKO, digər insan haqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlar, mina qadağasını təsbit edən konvensiyalar Ermənistanı qınamır. Ona görə də Ermənistan 2 ildir sülh danışıqlarından yayınır və regionda gərginliyi yaratmaq üçün əlindən gələni edir. Müşahidə etdiyimiz bu mənzərə, ikili standartlar bugünkü dünyanın vəziyyətini bizə açıq şəkildə əks etdirir. Fakt faktdır. Azərbaycan Ordusu 30 il işğalda qalan torpaqlarını öz gücü, Dəmir Yumruğu, öz birliyi, öz müdrikliyi, qəhrəmanlığı ilə azad edə bildi. 200 ildən sonra özünün qızıl tarixini yazdı. Heç kəs hansı oyunlar qurmasından asılı olmayaraq, Azərbaycanın Dəmir Yumruğunu sındıra bilməz, buna cəhd belə etməsinlər...

- Vətən uğrunda müharibənin geridə qalan iki ilinə baxış etsək, bu müddət ərzində üçtərəfli sazişin yerinə yetirilməsi müstəvisində vəziyyəti necə təhlil etmək olar? İki il əvvəl atəşkəsdən dərhal sonra regiona daxil olan Rusiya sülhməramlıların fəaliyyəti özünü nədə göstərir?

- 44 günlük müharibənin dayandırılması Rusiya tərəfindən təşəbbüslə irəli sürülən üçtərəfli saziş əsasında baş tutdu. Qeyd etmək lazımdır ki, bu sazişdə olan bütün bəndlər Azərbaycanın maraqlarından irəli gələrək müəyyənləşdirilmişdir. Bu sazişdəki bəndlər prinsip etibarilə həm münaqişəni, həm də münaqişədən sonrakı bütün məsələləri tənzimləməli idi. Biz bunu görmürük. Biz Rusiyanın bir vasitəçi, tərəflərin barışdırıcı qarantı olaraq Ermənistanın üzərinə götürdüyü öhtəlikləri yerinə yetirməsi üçün yetərli təzyiq göstərdiyini görmürük. Digər tərəfdən, Rusiya sülhməramlıları sazişə əsasən hazırda müvəqqəti yerləşdiyi ərazilərə daxil olan kimi erməni silahlı birləşmələrini tərksilah etməli idisə, biz bunu da görmədik. Bu faktın özü regionda bütün sülhyaratma prosesinə mənfi təsir göstərən əsas faktordur. Rusiyanın sülhməramlı qüvvələri də öz missiyalarını düzgün icra etmədiklərinə görə etibarını itirib. Sülhməramlılar regiona gələndən sonra da erməni silahlıları atəşkəsi ara-sıra pozurdu, digər tərəfdən, biz sülhməramlıların müəyyən bir şəkildə ermənilərin təsiri altına düşərək, daha çox ermənilərin maraqlarına uyğun hərəkət etdiyini müşahidə etdik. Rusiya sülhməramlılarının humanitar ad altında ermənilərə hansı yardımlar etdyini də gördük.

Bununla yanaşı, Azərbaycanın Rusiya sülhməramlılarının qarşısında qoyduğu qətiyyətli tələblərə əsasən sülhməramlılar müvəqqəti yerləşdikləri ərazilərdə qanunsuz silah daşımalarına edilən cəhdlərin qarşısını alır və ermənilərin daha geniş təxribatlar keçirməsinə imkan vermir. Azərbaycan tərəfi bu prosesdə sülhməramlılarla sıx təmasda olmaqla prosesi nəzarətdə saxlamağa çalışır.

- Sərhəddə Ermənistanın törətdiyi son gərginlik, Azərbaycan üçün hansı itkilər və hansı üstünlüklərin əldə olunması ilə müşahidə olundu?

- Ermənistan tərəfi mütəmadi olaraq istər daxildə, istərsə də sərhəddə atəşkəsi pozub. Ermənistan Laçın ərazisini boşaldan ərəfədə bizim bir əsgərin erməni təxribatı nəticəsində öldürülməsi nəticəsində Azərbaycan Ordusu "Qisas" əməliyyatı keçirərək, ərazidə olan terrorçulara ciddi zərbə endirdi. Düşmən həm hərbi texnika, həm canlı qüvvələrini itirdi. Azərbaycan strateji yüksəklikləri nəzarətə götürməklə mövqelərini daha əlverişli müstəviyə çıxartdı.

> *Komonda birlikləri bu əməliyyatlarda yüksək qiymətə layiq görüldülər*

"Qisas" əməliyyatından sonra Azərbaycan Prezidenti tərəfindən həm sülhməramlı qüvvələrə çox ciddi şəkildə irad bilirildi, həm də Ermənistana bir daha xəbərdarlıq edildi. Bundan sonra ərazidə olan ermənilər müəyyən dərəcə ehtiyat etməyə başladılar və üstəlik Ermənistan rəhbərliyi də "sülhün gündəlikdə" olması ilə bağlı bəyanatlar verdi. Lakin sonrakı danışıqlardan sonra atəşkəsin istiqaməti məhz sərhəd boyu ərazilərə keçirilən təxribatlarla dəyişdirildi. Son 31 avqust Brüssel danışıqlarından sonra, artıq Ermənistanın sülh müqaviləsini bağlaması üçün faktiki addımlar atmalı olduğu halda ermənilər sərhəddə daha geniş miqyaslı hərbi təxribata əl ataraq vəziyyəti gərginləşdirdilər, bu dəfə ermənilər Azərbaycan sərhədini aşdılar. Azərbaycan Ordusu həmişə olduğu kimi, əməliyyat şəraitinə ciddi nəzarət edərək Laçından tutmuş Zəngilan, Kəlbəcər, Daşkəsən istiqamətində sərhəd ərazilərində düşmənin bütün atəş mövqelərini susdurmağa nail oldular. Nəticədə, düşmən şəxsi heyətində, hərbi texnikasında çoxsaylı itkilər verərək geri çəkildi. Hələ də dağlıq ərazilərdə ermənilərin meyitləri tapılaraq Ermənistana təhvil verilir. Yaralıların sayı hər bir nəfər ölüyə 5 nəfər hesablanır... Əlbəttə, Ermənistan sülh danışıqlarına hazırlığın getdiyi bir vaxtda Azərbaycan sərhədlərini aşaraq bizi növbəti müharibəyə sövq edərkən özünün layiqli cavabını aldı...

Biz bu əməliyyat nəticəsində çox şeyə nail olduq. Azərbaycan Ordusu düşmənə bir daha Dəmir Yumruğunu göstərdi. Ordumuz yenə də 3000 metr hündürlükdə qəti adekvat addım ata biləcəyini nümayiş etdirdi. Cənab Prezidentin də dediyi kimi, Azərbaycanın Dəmir Yumruğu yenə də torpaqlarımıza göz dikən düşmənin başını əzdi. Bu "Qətiyyətli cavab" əməliyyatında düşmən çoxsaylı texnika, hərbi infrastrukturun dağılması ilə müşahidə olunan itkilər verdi. Ermənilərin özlərinin verdiyi məlumat əsasında 1 milyarddan yuxarı zərərə məruz qalıb.

Bu əməliyyatda əzizlərimizi itirdik, qəhrəman əsgərlərimizi itirdik. Onlar öz canları bahasına Şəhidlik zirvəsinə ucalaraq xalqımızı, ordumuzu ucaltdılar. Şəhidlər bir daha "Torpaq uğrunda ölən varsa vətəndir" şüarını bir daha öz əməli ilə təsdiqlədi. Bundan sonra ermənilərə qarşı onsuz da qalmayan etibarımızı tam olaraq itirdik.

Digər tərəfdən, Azərbaycan bu gün böyük bir əraziyə - Göyçə gölünün cənub hissəsinə tam nəzarət edir, eləcə də həmin gölün cənubundan logistik istiqamətdə gələn yollara tam şəkildə nəzarət edir.

- Sərhəddə nəzarətə götürülən yüksəkliklərin əhəmiyyəti nədir? ABŞ-ın bu əməliyyatlara qarşı təpkisi, bizim o yüksəkliklərdən çıxma ehtimalını yaradırmı?

- Vətən müharibəsindən sonra Cənubi Qafqazda müəyyən maraqların üst-üstə -düşməsini, sabitliyi pozmaq istəyən qrupların münasibətini görürük. Hələ Minsk qrupunun üzvləri ABŞ, Fransanın 30 il ərzində sərgilədiyi mövqe və bu günlər sərgilədiyi münasibətlə onların bu ərazidə vəziyyətin gərginləşməsi, münaqişənin alovlanması niyyətində olduğunu gördük. Azərbaycan torpaqlarını işğalda saxlayan, azərbaycanlılara qarşı soyqırımlar törədən, milli-mənəvi, tarixi abidələrimizi məhv edən ermənilər heç bir məsələdə qınamayan ABŞ və Fransa imkan düşən kimi Azərbaycanı əsassız, yersiz şəkildə ittiham edirlər. Bu gün sərhəddə baş verən erməni təxribatlarının səbəbləri də görünməkdədir. Təsadüfi deyil ki, bu təxribatlar baş verdi. Azərbaycan təxribatların qarşısını alandan sonra, ABŞ-dan nümayəndə gəlib Ermənistanın radikal dövlət nümayəndələri ilə görüşdü və ölkəmizə qarşı bəyanatlar verdi.

Əlbəttə, Azərbaycanın mövqeyi qətidir və biz heç bir kəsə daxili işlərimizə müdaxilə edib, bizi əsarətdə saxlamasına, kimlərəsə yem etməsinə imkan vermərik. Ona görə də nəzarət etdiyimiz o yüksəkliklərdən çıxmağa bizi heç kim məcbur edə bilməz. Nəzarətə aldığımız bu ərazilər delimitasiya demarkasiya prosesinə uyğun olaraq, Azərbaycanın müəyyən bir əraziləri kimi nəzərə alınmalıdır. Əgər sonrakı prosesdə hər hansı bir addım atılarsa, bu, Azərbaycan maraqlarının nəzərə alınması ilə olacaq.

- Pelosi ABŞ-ın Ermənistana hərbi dəstəyindən danışıb. Amerikanın Ermənistanı silahlandırmaq istəyi, üçtərəfli sazişə nə dərəcədə təsir edə bilər və nə dərəcədə realdır?

- Nensinin Ermənistana gəlişi, Azərbaycana qarşı təzyiqi yersizdir. Bu, bir daha ABŞ-ın bu proseslərdə hansı mövqedə olduğunu göstərir. ABŞ-dan gələn spiker Ermənistanı dəstəkləyəcəklərini, silahlandırmaq istəklərini gizlətməyib. ABŞ-ın maraqları Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən sülh danışıqlarına dəstək yox, Ermənistanı müharibəyə təhrik etməkdir. Əlbəttə, yaşlı xanımın üçtərəfli bəyannaməyə zidd olaraq dediyi ifadələr diqqəti cəlb etməyə bilməz. Bu gün Azərbaycan o Azərbaycan deyil. Dünya da o dünya deyil. Yanımızda Türkiyənin olması və əsasən, Azərbaycanla Türkiyənin regionda sülhə köklənməsi sabitliyə, inkişafa doğru tutduğumuz yol öz nəticələrini verəcək, Nensi Pelosinin niyyətləri ürəyində qalacaqdır.

- Ermənistan sərhəddə törətdiyi təxribatdan sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət edib, kömək istəyib. Bu təşkilat prosesə hansı halda müdaxilə edə bilər?

- Ermənistanın bu son əməliyyatdan sonra müraciət etmədiyi yer qalmayıb. Əlbəttə ki, KTMT regionda prosesə hər hansı bir müdaxilə etmək niyyətində olmayacaq. Bu təşkilatın nümayəndələri təxribatdan sonra ərazidə monitorinq keçiriblər. KTMT-nin üzvləri bu müraciətlə bağlı, artıq öz fikirlərini də bildiriblər və bu da Azərbaycanın maraqlarına zidd deyil. Düşünürəm, Ermənistanın KTMT-yə üzv olması, bu təşkilatda narazılıq salması parçalanmaya gətirə biləcək fəaliyyətə hesablanıb. Ermənistan özünü "bizim komandada yad nümayəndə kimi" aparır. KTMT-nin nümayəndəsi sifarişləri xaricdən alaraq ölkələr arasında narazılıq törətmək və bu təşkilatı dağıtmağa yönəlmiş addımlar atır. Tezliklə bunun şahidi olacağıq. Ermənistanın KTMT-dən çıxması ilə bəyanat verməsi istisna deyil. KTMT-nin dövlət rəhbərlərinin Azərbaycan dövlət rəhbəri ilə yüksək əlaqələri var. Azərbaycan dövlət rəhbərinin KTMT-də nüfuzu daha çoxdur, nəinki Ermənistanın. Ona görə də KTMT-nin Azərbaycan əleyhinə hansısa addım atacağını düşünməyə əsas yoxdur.

- Azərbaycan Ordusunun komondo birliklərinin formalaşdırılması prosesi necə gedir?

- Müharibə təcrübəsindən irəli gələn, müəyyən təhlillər və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin tapşırığına əsasən Türkiyə modelinə uyğun ordunun formalaşdırılması, Azərbaycan Ordusunun inkişafı istiqamətdə çoxsaylı işlər aparıldı. Orduda ştat quruluşunda, yeni hərbi hissələrin yaradılmasında ciddi irəliləyişlər oldu. Onlardan biri də komondo birliklərinin yaranması idi. Komondo birlikləri bu cür əməliyyatlarda zəruri olduqlarını göstərdilər. Komondo birlikləri müəyyən döyüş tapşırıqlarını yerinə yetirməyə cəlb edilərək bir daha döyüş qabiliyyətini sınaqdan keçirdi. Komonda birlikləri bu əməliyyatlarda yüksək qiymətə layiq görüldülər.

✍ ***Tahirə***

Pelosiyə siyasi partiyalardan cavab

Ermənistana səfər edən ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosi bölgədəki vəziyyəti təhrif edən açıqlaması ilə gündəmə gəldi. Sərhəddə baş verən insidentlə bağlı Azərbaycana qarşı əssasız və ədalətsiz ittihamlar irəli sürdü. Bu səfər və səsləndirilən əsassız ittihamlar Azərbaycan siyasi palitrası tərəfindən də kəskin şəkildə qınanılır. "Həftə içi" açıqlama verən siyasi partiyaların təmsilçiləri ABŞ Nümayəndələr Palatasının spikerini haqqın yanında olmağa çağırıb.

Müzakirə

■ **AMİP sədri Arzuxan Əlizadə:**

- 44 günlük Qarabağ savaşında Azərbaycanın qələbəsi bölgədə qüvvələr nisbətini, reallıqlar nisbətini tam olaraq Azərbaycanın xeyrinə dəyişib. Müharibədən dərhal sonra Azərbaycan sərt mövqeyini ortaya qoyaraq, ATƏT-in Minsk Qrupu vasitəçiliyindən imtina etdiyini bəyan edib. Həmsədrlərdən biri olan ABŞ vasitəçilik missiyasından kənarda qalmaqla, eyni zamanda regionu nəzarətdə saxlamaq imkanlarından da məhrum olmaqdadır. 44 günlük müharibədən sonra faktiki olaraq Rusiyanın, paralel olaraq Avropa İttifaqı Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə tərəflərin bir araya gəlinməsinə nail olunub. ABŞ bu kontekstdə növbəti dəfə Minsk Qrupunu dirçəltmək çapaları göstərir. Vaşinqton faktiki olaraq Ermənistanın tərəfini tutub. Nensinin, Baydenin təmsil olunduğu cameə 1992-ci ildə Azərbaycana qarşı yönəlmiş 907-ci düzəlişin qəbul olunmasına vəsilə olub. Bunların ermənipərəst siyasəti 30 ildir davam edir. ABŞ Demokratlar Partiyası nümayəndələrinin ermənilərə münasibətində təəccüblü bir şey yoxdur. Ermənistanın hazırkı baş naziri Paşinyan SOROS-un və ABŞ-ın dəstəyi ilə hakimiyyətə gətirilib. Onun vasitəsilə Ermənistanı Rusiyadan qoparıb Qərbə yönəltmək, Ermənistan vasitəsilə regionda nəzarəti öz əllərində saxlamaq siyasəti yürüdülür. Son sərhəd hadisələrində Paşinyanın nüfuzuna daha bir zərbə vurulub. Bu səfər Paşinyanın laxlayan hakimiyyətini möhkəmləndirmək məqsədi güdür. AMİP olaraq ABŞ-ın hazırkı hakimiyyətinin Azərbaycana qarşı sərgilədiyi münasibəti şiddətlə qınayırıq. Azərbaycanın beynəlxalq hüquq çərçivəsində tanınan sərhədlərini qorumaq haqqdır. Heç kəs müstəqil dövlətin özünü qoruma haqqını əlindən ala bilməz.

■ **ALDP sədri Fuad Əliyev:**

- ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Ermənistana səfəri və bəyanatları regionda sülhə yox, gərginliyin daha da artırmasına xidmət edir. Fikrimcə, onun əsas məqsədi Cənubi Qafqazda davamlı sülhün, sabitliyin təmin olunmasına maneə yaratmaq, separatizmi stimullaşdırmaq, ziddiyyətləri dərinləşdirməkdir. Xanım Pelosi açıq-aşkar ermənilərə olan sevgisini nümayiş edir. Onu müşayiət edənlərdən üçü ermənisilli idi. Xanım Pelosinin Azərbaycan və Türkiyəyə qarşı söylədiyi fikirlər onun anti-türk düşərgənin üzvü kimi büruzə verir. ABŞ-da ən qəti ermənipərəst siyasətçilərdən biri kimi tanınır. Xanım Pelosinin açıqlaması baş vermiş hadisələrə obyektivlikdən uzaq, qərəzli və birtərəfli yanaşmanı əks etdirir. "Ədalətdən" danışan Pelosi bu vaxtadək Azərbaycana qarşı Ermənistanın təcavüz, işğalçılıq siyasəti, ərazilərinin 30 ilə yaxın davam edən işğalı, yüz minlərlə azərbaycanlının etnik təmizlənməsi, milyondan çox azərbaycanlının öz ata-baba yurdlarından didərgin düşməsi və digər bu kimi ağır cinayətlərlə bağlı məqsədli şəkildə heç bir mövqe nümayiş etdirməyib. ALDP olaraq ABŞ Konqresinin bu cür ədalətsiz mövqe tutmasını şiddətlə qınayırıq.

■ **Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli:**

- Pelosinin Ermənistana səfəri ABŞ Konqresinin Nümayəndələr Palatasına noyabrda keçiriləcək aralıq seçkilərlə birbaşa əlaqəlidir. Bu səfər ilk növbədə həmin seçkilərdə ABŞ-dakı erməni disporunun rəğbətini qazanmaq, erməni əsilli amerika vətəndaşlarından mümkün qədər daha çox səs toplamaq və eyni zamanda seçki kampaniyası üçün onlardan daha çox yardım almaq üçündür. Hamıya, o cümlədən amerikan syasətçilərinə aydındır ki, erməni diasporu ABŞ kifayət qədər təşkilatlanıb və ayrı-ayrı dairələrdə seçkilərin nəticələrinə təsir göstərmək imkanındadir. Pelosinin İrəvanda Azərbaycan əleyhinə verdiyi açıqlamalar bu konteksdə nəzərdən keçirilməlidir. Bu açıqlamalar Azərbaycan cəmiyyətinin mütləq əksəriyyəti tərəfindən haqlı olaraq erməni lobbisinin təsiri altında olan Amerika siyasi dairələrinin antiazərbaycan və antitürk mövqeyinin nümayişkəranə və kobudcasına ifadəsi kimi qiymətləndirilir. Bu cür açıqlamalar Ermənistanda revanşist meylləri stimullaşdırır və təcavüzkarın şirniklendirilməsi kimi qiymətləndirilməlidir. Bu yaxınlarda Fransada prezident seçkiləri zamanı namizədlərdən biri də oxşar addımlar atmışdı. Lakin onun Ermənistana və Xankəndinə səfəri seçkilərdə uğur gətirmədi. İnşallah xanım Pelosiyə də heç bir uğur gətirməyəcək. Aydınlar Partiyası olaraq ABŞ-ın ədalətsiz mövqeyini qınayırıq.

> *ABŞ Demokratlar Partiyası nümayəndələrinin ermənilərə münasibətində təəccüblü bir şey yoxdur*

> *Xanım Pelosinin Azərbaycan və Türkiyəyə qarşı söylədiyi fikirlər onun anti-türk düşərgənin üzvü kimi büruzə verir*

> *Hamıya, o cümlədən amerikan syasətçilərinə aydındır ki, erməni diasporu ABŞ kifayət qədər təşkilatlanıb və ayrı-ayrı dairələrdə seçkilərin nəticələrinə təsir göstərmək imkanındadir*

> *Bu xətt ABŞ prezidenti tərəfindən müdafiə olunacaq ya yox, bilinmir*

■ **Azad Vətən Partiyasının sədri Akif Nağı:**

- ABŞ-ın Qarabağla bağlı mövqeyinin həmişə ədalətsiz olduğunu demişik.Hələ 1989-cu ildə "dünya Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə fəaliyyətə keçməsindən xəbərsiz" olduğu bir vaxtda ABŞ Konqresi Azərbaycana qarşı qətnamə qəbul edib. Həmin qətnamədə guya ABŞ "Dağlıq Qarabağ"dakı ermənilərin haqq-ədalət mübarizəsini müdafiə edib. Daha sonra 1992-ci ildə "907-ci düzəlişi", 1998-ci ildə "Dağlıq Qarabağ"dakı qondarma quruma yardımla bağlı qərarı qəbul edib. Ondan sonrakı illərdə də ABŞ daim Azərbaycanın maraqlarına zidd olan mövqe ortaya qoyub. Bu 2007-2008-ci illərdəki Madrid Prinsiplərində də özünü göstərdi. ABŞ indi də mövcud status-kvodan narazıdır. Bilirik ki, 44 günlük müharibədən sonra ABŞ-ın Azərbaycana mövqeyi sərt oldu. Azərbaycanı qınadılar, ittiham etməyə cəhd elədilər. Bu gün də Minsk Qrupunu gündəmə gətirir, status məsələsini önə çəkirlər. Onların fikrincə, guya "Qarabağ münaqişəsi" bitməyib. Son hadisələr də bunun davamıdır. Nensi Pelosi bütün canı-qanı ilə ermənilər müdafiə edir. O, qondarma "soyqırım" məsələsində də ernmənilərin tərəfində durur. O, bu gün də Azərbaycanı ittiham edən çıxışlar edir, ermənilərin hərbi müdafiəsində duracaqlarını deyirlər. ABŞ regionu yenə öz plazdarmına çevirmək istəyir. Bu xətt ABŞ prezidenti tərəfindən müdafiə olunacaq ya yox, bilinmir. Azərbaycan dövlətinin haqlı mövqeyinin yanınadıyıq, ABŞ-ın bu qərəzli münasibətini pisləyirik.

✍ ***Tahirə Qafarlı***

Milli adət-ənənələrimiz azad edilmiş torpaqlara qayıdır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Layihə

Hər bir xalqın, millətin formalaşmasında, dünya miqyasına çıxmasında mühüm rol oynayan amillərdən biri də onun adət-ənənələri, mədəniyyətdir. Mədəniyyət insanın öz fəaliyyəti prosesində nail olduğu predmetlər və dəyərlər toplusudur ki, bütün bunlar da nəsildən-nəsilə ötürülərək daha da inkişaf etdirilir. Tarix sübut edib ki, yüksək mədəniyyətə, zəngin adət-ənənələrə malik xalq müasir dövrün yeni çağırışlarına uyğun hərəkət etməyə və tərəqqi, inkişaf yolunda inamla addımlamağa qadirdir.

Dünyanın ən qədim xalqlarından olan Azərbaycan da özünün zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr verməkdədir. Min illər boyu formalaşan və Azərbaycan xalqının yüksək mənəvi dəyərlərə malik olduğunu göstərən təkraredilməz adət və ənənələr millətimizin keçmişi ilə bu günü və gələcəyi arasında sarsılmaz körpü rolunu oynamaqdadır. Təsadüfi deyil ki, adət və ənənələrin hər bir millətin həyatında oynadığı əvəzsiz rolunu yüksək qiymətləndirən Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli dəyərlərinin qorunmasına, mədəniyyətinin inkişafına, adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Mərhum lider gənclərimizi xalqımızın milli dəyərləri, əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. O deyirdi: "Biz öz adət-ənənələrimizi, milli-əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalı, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

O həmçinin deyirdi: "Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıb. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".

Azərbaycan dünyaya həm də mədəni töhfələr verir

Yeri gəlmişkən, qeyd edək ki, milli-mənəvi dəyərlərimizin qorunmasında çox böyük xidmətləri olan Ümummilli lider sovet dönəmində ona qarşı edilən bir sıra təzyiqlərə baxmayaraq bu yolda fəaliyyətindən geri çəkilmir.

Təkcə bir faktı deyək ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və qətiyyəti ilə hələ sovet dönəmində Azərbaycan SSR-in Konstitusiyası qəbul olunarkən orada ana dilimizin dövlət dili statusu təsbit olunmuş, Novruz bayramı daha geniş şəkildə təbliğ edilmişdir. Bu gün Ümummilli lider Heydər Əliyev siyasi kursunun davamçısı Prezident İlham Əliyev tərəfindən mədəni həyatımızla, adət-ənənələrimizlə bağlı ardıcıl olaraq imzalanan sərəncamlar bu sahənin inkişafına daha da güclü stimul verir. Təbii ki, dünyaya inteqrasiya olunduğumuz zamanda Azərbaycan milli-mənəvi dəyərləri, sənəti, mədəniyyəti, incəsənəti ilə də heyrət doğura bilib. Bu dəyərlərin əsasında xalqın tarixi köklərini, tarixini, mədəniyyətini, qəhrəmanlığını, məişətini, sosial həyatını əks etdirən faktorlar dayanır. Belə bir tarixi irsin daşıyıcısı olan xalqın qürurla səhifələdiyi vərəqlər zənginləşir, Azərbaycanın dünyaya töhfələr verən abidəsi olduğunu sübut edir. Təbii ki, bu abidələr fərdlər tərəfindən milli düşüncənin məhsulu olaraq ortaya qoyulur. İlham Əliyev tərəfindən ardıcıl olaraq imzalanan sərəncamlarda bu ifadə təsdiqini bir daha tapır. Prezidentin sərəncamı ilə Bakıda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Xalça Muzeyinin inşası, regionlarda yeni muzey və musiqi məktəblərinin yaradılması və s. qədim və zəngin mədəni irsə olan diqqətdir.

Heydər Əliyev Fondu - mədəni incilərimizin hamisi

Azərbaycanın milli adət-ənənələrinin, mədəniyyətinin qorunub saxlanılmasında, dünyada təbliğ edilməsində Heydər Əliyev Fondunun da xidmətləri danılmazdır. Qeyd edək ki, məhz Fondun prezidenti, Vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycan muğamı, Novruz bayramı, aşıq sənəti, xalçaçılıq, tar ifaçılıq sənəti və s.

YUNESKO-nun maddi-mədəni irs siyahısına daxil edilib. Azərbaycan mədəniyyətinin nadir incisi olan muğam sənətinə maraq artıb. 26 Avqust Beynəlxalq Muğam Günü kimi qeyd olunur. BMT tərəfindən Novruz bayramı Beynəlxalq Gün kimi qəbul edilib.

Fondun təşəbbüsü ilə nəşr olunan kitablarda Azərbaycan mətbəxi, mədəniyyəti, təbiəti və sair barədə məlumatlar verilib. Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə bu şəkildə yanaşma yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycan və onun paytaxtı Bakı bir çox dövrlərdə dünya mədəni irsinə layiqli töhfələr vermişdir. Bu proses indi də davam edir. Bu gün Bakı Şərqin bütün gözəlliklərini özündə əks etdirən Qərb şəhəri kimi, yaxud da Qərb cazibəsini özündə əks etdirən Şərq paytaxtı kimi qəbul olunur.

Ölkəmizdə beynəlxalq tədbirlərin keçirilməsi, dinindən, irqindən asılı olmayaraq, saysız insanların Azərbaycana səfəri bu diyarın sivilizasiyaların qovuşuğunda yerləşdiyinə əsaslanır və müxtəlif tədbirlərin Azərbaycanda təşkili ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Fondun təşəbbüsü ilə Fransanın San-Trope şəhərində "Azərbaycanın mədəni zənginlikləri" adlı sərgisi, Fransanın Mejev şəhərində, Afinada, Hannoverdə və başqa məkanlarda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, Parisdə Reza Deqatinin Azərbaycana həsr olunmuş fotosərgisinin açılışı və s. Azərbaycan milli dəyərlərinin, tarixi irsinin təbliğində əhəmiyyətlidir. 2009-cu ildən Azərbaycanın gözəl guşələrindən biri olan Qəbələdə Beynəlxalq Musiqi Festivalının keçirilməsi ilə milli musiqi mədəniyyəti tarixində yeni ənənənin təməli qoyulub. Dünyanın müxtəlif ölkələrinin musiqiçilərini Qafqaz Albaniyasının paytaxtı olan, zamanın, mədəniyyətin izini daş yaddaşına həkk edən Qəbələyə toplayır.

Heydər Əliyev Fondu, şəxsən fondun prezidenti Mehriban xanım Əliyeva təkcə Azərbaycanda deyil, eləcə də beynəlxalq mədəni proseslərdə yaxından iştirak edir, xüsusilə mədəniyyətlərarası dialoqla bağlı təşəbbüslərə xüsusi diqqət göstərir.

Mədəniyyətlər paytaxtı Şuşa mədəni tədbirlərə evsahibliyi edir

44 günlük Vətən müharibəsində əldə edilən Zəfərdən sonra Azərbaycan dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliğini işğaldan azad edilən rayonlarda keçirdiyi beynəlxalq səviyyəli tədbirlərin vasitəsilə də həyata keçirir. Bu gün mədəniyyətlər paytaxtı Şuşa mədəni tədbirlərə ev sahibliyi edir.

Məlum olduğu kimi, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti zamanı Ali Baş Komandan İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etdi. 2022-ci il yanvarın 5-də isə Prezident bununla bağlı Sərəncam imzaladı. Mühüm siyasi və tarixi əhəmiyyət kəsb edən bu sərəncam dövlət başçısının xalqımızın tarixi və mədəni dəyərlərimizə xüsusi diqqətinin, böyük ehtiramının göstəricisi idi. 2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan edilməsi, həmçinin Şuşanın bu günü və gələcəyi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, bütün dünyaya verilən mesaj, Azərbaycanın Vətən müharibəsində böyük Qələbəsinin təntənəsidir.

Hazırda Qarabağın incisi olan Şuşada və digər ərazilərdə böyük quruculuq layihələri aparılır. Bu layihələr azad olunan ərazilərdə inzibati, tarixi və mədəni abidələrin bərpası ilə yanaşı, həm də tarixi torpaqlarımızda illərdir həyata keçirilməyən mədəni tədbirlərimizin, ənənələrimizin bərpasını da əhatə edir. İlk addım kimi vaxtilə ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin - Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri doğma yurdlarına geri gətirildi və Şuşa şəhərinin mərkəzi meydanında yerləşdirildi. Eyni zamanda mənfur düşmən tərəfindən dağıdılmış şərqdə ilk operanın müəllifi, müasir musiqimizin qurucusu - dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin abidəsi yenidən ucaldıldı, dahi bəstəkarın viran edilmiş evinin bərpası ilə bağlı işlərə başlanıldı. Görkəmli sənətkar, böyük xanəndə Bülbülün ev muzeyi bərpa edildi. Bu il Şuşada 5-ci Xarıbülbül festivalı keçirildi. Bu, tədbir Azərbaycan xalqına məxsus tarixi-mədəni irsin, ənənələrimizin bərpası olmaqla yanaşı, həm də beynəlxalq səviyyədə dünya folklor nümunələrinin təqdimatı idi. Ötən il uzun fasilədən sonra keçirilən festival şəhidlərimizin əziz xatirəsinə həsr olunmuşdu. Bu il isə tamaşaçılar Şuşa ilinə həsr olunan beynəlxalq folklor festivalını izlədilər.

Artıq bu gün uzun sürən ayrılıqdan sonra azad Şuşa yenidən festivallar, poeziya günləri və bir çox başqa mühüm mədəni tədbirlərə də ev sahibliyi etməkdədir. Beləliklə, işğaldan azad olunan torpaqlarımız hazırda bərpa və quruculuq işləri ilə yanaşı, eyni zamanda mənən və ruhən də dirçəlməkdədir.

✍ ***Sevinc***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.

XƏBƏRİNİZ OLSUN...

■ Gələn il enerji və gübrələrin bahalaşması baxımından daha çətin ola bilər. Biz ərzaq məhsullarının bahalaşmasına da hazır olmalıyıq. Bunu Almaniya kansleri Olaf Şolts deyib.

Onun sözlərinə görə, bu sahədə qlobal böhran ən çox cənub ölkələrinə təsir edib.

■ Abşeronda Filippin vətəndaşı evində ölü tapılıb. Azərbaycan müvəqqəti yaşayan Filippin vətəndaşı, 1951-ci il təvəllüdlü Anthony Tonqol Saray qəsəbəsində qaldığı mənzilin hamam otağında ölü tapılıb. Araşdırma aparılır.

■ Qarabağa Böyük Qayıdışla bağlı qanunvericilik aktı hazırlanacaq. bu, Milli Məclisin İnsan hüquqları komitəsinin payız sessiyası üçün İş planına daxil edilib. Sənədə əsasən, komitə Qarabağa Böyük Qayıdışla bağlı qanunvericilik aktının hazırlanmasına dair müvafiq dövlət, hökumət qurumları ilə birgə iş təşkil edəcək.

■ Milli Məclisin İnsan hüquqları komitəsi yanında İnsan hüquqları ilə bağlı Çevik Qrup yaradılacaq. Bu, Milli Məclisin İnsan hüquqları komitəsinin 2022-ci il payız sessiyası üçün İş planına daxil edilib. Bildirilib ki, bununla bağlı hüquq profilli QHT-lərlə görüş keçiriləcək və təklifin reallaşdırılması yönündə tədbirlər görüləcək.

■ YAŞAT Fondu daha bir müharibə iştirakçısının müalicə xərclərini qarşılayıb. Bu barədə fonddan məlumat verilib. Məlumatda bildirilir ki, Aprel döyüşləri və Vətən müharibəsinin iştirakçısı, Xüsusi Təyinatlı Qüvvələrin baş giziri Mehman Şirəliyevin müalicə xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb, məişət şəraiti yaxşılaşdırılıb.

■ "Xaricdə yaşayan soydaşlar və diaspor təşkilatları haqqında" yeni qanun layihəsi hazırlanacaq. Qeyd edilib ki, bu qanun layihəsinin hazırlanması üçün dinləmələr keçiriləcək.

■ Son zamanlar Azərbaycana kiberhücumların sayı kəskin artıb. Bunu Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini Azər Əhədov bildirib. Onun sözlərinə görə, buna səbəb məlumatlılığın az, kibergigyenanın aşağı səviyyədə olmasıdır.

■ Münhen "Bavariya"sı London "Tottenhem"inin və İngiltərə millisinin hücumçusu Hari Keyni almaq istəyir. Almaniya klubu növbəti yay transfer pəncərəsi zamanı bu istiqamətdə fəal işləyəcək: Bu yay almanlar artıq Keynin nümayəndələri ilə əlaqə saxlayıb. İdmançının özü də Münhen klubuna keçməyin əleyhinə deyil. Böyük ehtimalla "Bavariya" Keyn üçün təxminən 100 milyon avro ödəyəcək.

Səfirliklərimizi erməni hücumlarından necə qoruyaq

Dünya ermənilər Azərbayacana qarşı səlib yürüşünə keçib. Dünyanın bir çox ölkələrində, o cümlədən Fransa, Livan və digər ölkələrdə yaşayan erməni fanatikləri Azərbaycanın səfirliklərinə hücum edib, səfirliyə zərər yetiriblər.

Avropanın ədalət, hüquq carçıları, niyə erməni cinayətlərinə qarşı çıxış etmirlər? Burada məqsəd nədir və ermənilər nəyə nail olmağa çalışırlar?

■ **Siyasi analitik Azər Hüseynov "Həftə içi"nə bildirib ki, ermənilərin Azərbaycan səfirliklərinə təşkil olunmuş hücumlarının artması onların fəaliyyətlərinin spesifik tərəfləridir.**

O, ermənilərin diplomatlara hücumlarının tarixən türk səfirliklərinə hücumlar və terror aktlarının törədilməsi ilə yadda qaldığını xatırladıb. Onun sözlərinə görə, ermənilərin terror edərək türk diplomatlarını öldürməsi, əslində, ermənilərin gücsüzlüklərinin etirafından başqa bir şey deyil. A.Hüseynov hesab edir ki, hadisə törədilən dövlətlərin Azərbaycan səfirliklərini qorumamasının səbəblərindən biri isə bu dövlətlərin mövcud dünya sisteminin tərkib hissəsi olmasıdır. "Azərbaycan və Türkiyə, eləcə də Avrasiya məkanında yerləşmiş digər dövlətlər hazırda mövcud olan dünya sisteminin dəyişməsi istiqamətində fəaliyyət göstərirlər. Hazırkı dünya sisteminin mərkəzində Qərb dayanır və iqtisadi, siyasi, mənəvi olaraq üstünlükdədir. Bu ona görə belədir ki, 200 ildir imperialist istismar siyasətini həyata keçirir, xalqların sərvətləri, imkanları, gücləri özlərinin inkişafına deyil, bu imperialist güclərin inkişafına yönəldilir. Azərbaycan və Türkiyə buna qarşı çıxan avanqard ölkələrdən biridirlər".

> *Azərbaycan və Türkiyə, eləcə də Avrasiya məkanında yerləşmiş digər dövlətlər hazırda mövcud olan dünya sisteminin dəyişməsi istiqamətində fəaliyyət göstərirlər*

Siyasi analitik bildirib ki, imperialist güclərin əlinin altında istifadə etdikləri "balacalar" olur və ermənilər də həmin o balacalardandır. "Həmin o balacalar "sahiblərin öz itini kiminsə üstünə göndərdiyi" kimi indi də bizim səfirliklərimizi hədəfə alırlar. Bütün bunları nəzərə alaraq hesab edirəm, xaricdə yaşayan azərbaycanlıların, eləcə də səfirliklərimizin qorunması istiqamətində yeni təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi üçün fəaliyyət planı hazırlanmalıdır.

Həm səfirliklərimizin qorunması, həm də bizə hücum edənlərin yerindəcə cəzalandırılıb başa salınması lazımdır. Buna görə bir sıra fədakarlıqlara da gedilə bilər. Azərbaycan şərəfli bir dövlət olduğunu göstərir və dünyaya bəyan edir ki, o, qardaş Türkiyə ilə birlikdə dünya reallıqlarını dəyişmək istəyir...".

■ **Beynəlxalq Münasibətlərin Təhlili Mərkəsinin eksperti Mətin Məmmədli bildirib ki, dünya ermənilərinin müxtəlif ölkələrdə səfirliklərimizə qarşı hücumlarının heç bir hüquqi, siyasi əsasları yoxdur. Siyasi ekspert hesab edir ki, belə hücumları heç şübhəsiz ki, erməni diasporasının ayrı-ayrı ölkələrdə yaşayan qrupları törədir.**

"Erməni diasporası Azərbaycan-Ermənistan arasında keçmişdə və indi mövcud olan münaqişənin, gərginliyin həllində hər zaman olduqca radikal mövqe sərgiləyib. Sülh prosesini tormuzlayan, maneə yaradan əsas qüvvələrdən biri erməni diasporudur. İndi onların belə aksiyalar keçirməsi Ermənistanın zəif duruma düşməsi ilə bağlıdır. Ermənilər həm zəif, həm də haqsızdırlar. Bu da onların qeyri-adekvat hərəkət nümayiş etdirməsinə səbəb olur".

> *Erməni diasporası Azərbaycan-Ermənistan arasında keçmişdə və indi mövcud olan münaqişənin, gərginliyin həllində hər zaman olduqca radikal mövqe sərgiləyib*

M.Məmmədli səfirliklərimizə edilən hücumlarda digər məsuliyyət payının həmin ölkələrin - Livan, Fransa və digər ölkələrin üzərinə düşdüyünü deyib.

"Xüsusən sə, Fransadakı səfirliyimiz ölkənin təhlükəsizlik orqanları tərəfindən ciddi qorunmur. 1961-ci il Vyana Konvensiyasına görə diplomatik nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün lazımi tədbirlər görmək yerləşmə dövlətinin xüsusi vəzifəsidir. Bu baxımdan da həmin ölkələr də ciddi məsuliyyət daşıyır.

✍ ***Tahirə Qafarlı***

Paşinyanın devrilməsi inandırıcı görünmür

Ərəstun Oruclu,
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu ilə hafta.az üçün bu dəfəki söhbətimizdə Ukraynada Rusiya ordusunun ciddi uğursuzluqlarının ardınca postsovet məkanında baş verən Azərbaycan-Ermənistan sərhədindən çoxsaylı itkilərlə nəticələnən qarşıdurma, Qırğızıstan-Tacikistan sərhədində yenidən alovlanan silahlı münaqişə, bu arada ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin İrəvana səfəri və digər olayların bir-biri ilə geo-siyasi baxımdan bağlılığı haqda danışdıq. Həmçinin son hadisələr fonunda Ermənistanda Paşinyan hakimiyyətinin Rusiyayönümlü müxalifət tərəfindən devrilməsi cəhdləri, eləcə də Ukraynadakı faktiki silsilə hərbi məğlubiyyətlərdən sonra Rusiyanın hazırkı prezidenti Vladimir Putinin siyasi səhnədən getməsinin vaxtı və s. haqda müzakirə apardıq.

Müsahib

- Ərəstun bəy, Ukraynada Rusiya ordusunun yüzlərlə məntəqədən çıxarılmasıyla cəbhədə ciddi dönüş yaranmasından sonra Ermənistanın Azərbaycanla sərhəddə təxribatı nəticəsində yaranmış qanlı qarşıdurma, ardınca Qırğızıstan-Tacikistan sərhədində yenidən alovlanan silahlı münaqişə... Və bu arada ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin İrəvana səfəri... Bu hərbi və siyasi olaylar arasında geo-siyasi baxımdan hansı bağlılıq, əlaqə görürsüz?..

- Sadalanan hərbi və siyasi proseslər; istər Ukrayna-Rusiya konflikti və bunun ardınca Ukraynanın əks-hücuma keçərək Rusiyanı ciddi məğlubiyyətlərə uğratması və həmən bu mərhələdə Azərbaycan-Ermənistan sərhədində gərginlik və nəhayət, Tacikistan-Qırğızıstan münaqişəsinin alovlanması və s. onu göstərir ki, artıq Rusiya Qərb istiqamətində, yəni Ukraynadakı məğlubiyyətini anladığından digər istiqamətlərdə revanş götürməyə can atır. Bəs həmin istiqamətlərin mahiyyəti nədən ibarətdir?..

Ümumiyyətlə, Ukrayna konfliktinin başlıca səbəblərindən biri Rusiyanın böyük Şərq-Qərb dəhlizini Qara dəniz və Ukrayna üzərindən kəsmək cəhdi idi. Amma NATO-nun, Qərbin, xüsusilə də ABŞ-ın müqaviməti nəticəsində bu cəhdin qarşısı alındı. Yəni hələlik alınmaq üzrədir. Və belə görünür ki, tamamilə alınacaq da... Artıq hərbi strateji vəziyyət Ukraynanın xeyrinə dəyişməyə başlayıb. Və Moskva üçün sözügedən dəhlizi kəsməyin iki yolu qalır; bunun biri Mərkəzi Asiyadır, digəri isə Cənubi Qafqazdır. Bilirik ki, Mərkəzi Asiyada Rusiya ilk cəhdi bu ilin yanvarında Qazaxıstanda etdi. Amma orada Çin çox aktiv şəkildə proseslərə müdaxilə edərək Rusiyanı faktiki olaraq Qazaxıstandan sıxışdırıb atdı. Və bu gün də görünür ki, Qazaxıstanda verilən qərarlar, bəyanatlar, atılan addımlar birmənalı və açıq şəkildə anti-Rusiya xarakteri daşıyır. Belə olduqda bölgədəki vəziyyəti gərginləşdirmək və Mərkəzi Asiyada destablizasiya yaratmaq üçün Rusiya iki zəif həlqə olan Qırğızıstan və Tacikistana əl atdı. Özbəkistanı manipulyasiya etmək asan deyil. Türkmənistan isə bu proseslərdən bir qədər araılıdır və bəhs edilən dəhlizə aidiyyatı cüzidir. Odur ki, bu dəfəki hədəf Tacikistanla Qırğızıstan seçildi. Qeyd edilən münaqişələr bir-biri ilə birbaşa əlaqəlidir və məhz Rusiya tərəfindən qızışdırılır.

Dediyim kimi, Şərq-Qərb dəhlizini kəsən digər yol Cənubi Qafqazdan keçir. Və Rusiya buradakı Ermənistan-Azərbaycan konfliktini yenidən alovlandırmaq, bölgəyə qoşun yeritmək və Yaxın Şərq istiqamətində keçən kommunikasiyaları nəzarətə götürmək məqsədi güdür. Hələlik bu da alınmır. Biz gördük ki, məhz elə Qazaxıstan, Qırğızıstan və Tacikistan KTMT çərçivəsində Azərbaycan-Ermənistan sərhədinə qoşun yeridilməsinə razılıq vermədi...

Deməli, bütün sadalanan konfliktlərdə əlaqə birbaşadır...

Nensi Pelosinin bölgəyə səfərinə gəldikdə bu, öncədən planlaşdırılmış səfər idi. Bu, yeni səfər deyildi. Sadəcə olaraq Ermənistanla sərhəddəki son qarşıdurmanın ardınca baş tutdu. Və Pelosi, başqa sözlə, ABŞ göstərdi ki, Ermənistan üzərindən bu və ya digər dəhlizin açılmasında maraqlı deyil.

Və İrəvandan səslənən bəyanatlar da buna açıq işarədir. Artıq Ermənistanda Rusiyanı KTMT-dən çıxmaqla hədələyirlər. Və erməni ictimai-siyasi dairələrində açıq şəkildə anti-Rusiya siyasi xətti yürütmək haqqında müzakirələr gedir...

- Sizcə, bütün bu baş verənlərdən sonra Zəngəzur dəhlizinin tezliklə açılması mümkün olacaqmı?

- Son baş verənlər, yəni Ermənistanın Qərbdən, xüsusən ABŞ-dan dəstək alması onu göstərir ki, Zəngəzur dəhlizinin açılması tezliklə mümkün olmayacaq. Və ümumiyyətlə, bunun mümkün olub-olmayacağı özü böyük bir sualdır. Mən belə görürəm prosesi... Hər bir halda bundan sonra Ermənistana qarşı "Zəngəzur dəhlizini açın" tələbi ilə davranmaq xeyli dərəcədə çətin olacaq.

Bir şərtlə ki, Ermənistanın daxilində hansısa destablizasiya baş verməsin. Amma nəzərə alsaq ki, ABŞ-ın da Ermənistana təsiri yetərincədir, Ermənistandakı Paşinyan hökuməti Amerikayönlü hökumətdir, ABŞ da böyük geo-siyasi xəritədə fəaliyyət göstərən super güc kimi, əlbəttə, öz tərəfdaşlarını qoruyacaq. O cümlədən də Paşinyan hökumətini... Yəni bütün bunlar Zəngəzur dəhlizinin açılması prosesini nəinki gecikdirmiş olur, ümumiyyətlə, dediyim kimi həmin prosesi şübhə altına alır...

> *Son baş verənlər, yəni Ermənistanın Qərbdən, xüsusən ABŞ-dan dəstək alması onu göstərir ki, Zəngəzur dəhlizinin açılması tezliklə mümkün olmayacaq*

- Yəqin ki, bu gedişlə Rusiya "sülməramlı" hərbi kontingenti ərazimizdən çıxarılmamış Xankəndi, Xocalı və s. məntəqələrimizin yurisdiksiyamıza keçirilməsi də mümkün olmayacaq?

- Rusiyanın dırnaqarası "sülhməramlı"larının nəzarətində qalan Xankəndi, Xocalı, Ağdərə və digər ərazilərə gəldikdə, təbii ki, həmin ərazilər bu gedişlə Azərbaycanın nəzarəti altına keçməyəcək. Ən azı, ona görə ki, belə bir addım atılacağı halda Rusiya ilə Azərbaycanın Ermənistana qarşı mövqeləri üst-üstə düşsə belə, bu, Rusiyanın maraqlarına zidd olacaq. Ona görə zidd olacaq ki, həmin bölgələrin Azərbaycanın yurisdiksiyasına keçməsi Qarabağ münaqişəsinin birdəfəlik həll edilməsidir. Məlumdur ki, bu halda oradakı erməni əhali birdəfəlik çıxıb gedəcək. Və yalnız Azərbaycana etnik təmizləmə və s. kimi mövzularda təzyiqlər ediləcək. Amma eyni zamanda bunlarla paralel Rusiya da bölgəni tamamilə tərk etməli olacaq. Və xüsusilə də nəzərə alsaq ki, bu gün Rusiyanın özünün Ermənistanda hərbi-siyasi mövcudluğu sual altına düşüb, əlbəttə ki, Kreml Qarabağı nəinki tərk etmək haqda düşünəcək, buralarda daha da möhkəmlənməyə çalışacaq...

- Azərbaycanla son silahlı toqquşmalar zamanı erməni ordusunda da baş vermiş çoxsaylı canlı itkilərdən sonra Ermənistandakı mövcud hakimiyyətə rusiyayönümlü müxalifətin təpkiləri ilə paralel Qərbin, ABŞ-ın dəstəyi də olduğundan, yəqin ki, artıq Paşinyanın devrilməsi gözlənilmir?

- ABŞ-ın açıq dəstəyi olduğu bir halda Paşinyanın hakimiyyətdən uzaqlaşdırmaq rusiyayönümlü müxalifət üçün çətin olacaq. Onu da unutmayaq ki, Nensi Pelosi son dövrdə Ermənistana səfər edən yeganə ABŞ təmsilçisi deyil. Bundan öncə təsir imkanları baxımından Pelosidən heç də geri qalmayan Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru da İrəvana səfər etmiş, Paşinyanla görüşmüşdü... Belə olduğu halda, əlbəttə ki, Paşinyanın mövqeləri güclənir. Yenə də xatırlatmaq yerinə düşər ki, Ermənistan Amerikanın ən böyük səfirliyi yerləşən 3 ölkədən biridir. Deməli, amerikalılar heç də asanlıqla öz tərəfdaşları olan Paşinyanın devrilməsinə imkan verməyəcəklər. Xüsusilə, Rusiyanın indiki vəziyyətində, onun sisteminin, dövlət maşınının sınmış olduğu bir durumda Paşinyanın devrilməsi inandırıcı görünmür. Və eyni zamanda nəzərə alsaq ki, ABŞ-Ermənistan münasibətlərinin bu dərəcədə yaxınlaşması Amerika, Fransa və digər Qərb ölkələrindəki, həmçinin Yaxın Şərq ölkələrindəki erməni diasporunun marağındadır. Odur ki, həmin rusiyapərəst müxalifət qrupları təklənmiş vəziyyətdə qalacaq. İnanmıram ki, yalnız Rusiyadan dəstək almaqla onlar Paşinyanı devirə bilsinlər. Paşinyan ordunu da xeyli dərəcədə təmizləyib. Artıq Ermənistan ordusunda da güc yolu ilə dövlət çevrilişi edəcək güclü bir rusiyapərəst komanda qalmayıb. Düzdü, Moskvaya bağlı bu və ya digər adamlar var. Amma onlar artıq açar fiqurlar rolunda deyillər...

- Ukrayna ordusunun son irəliləyişləri ilin sonunadək Putinin siyasi səhnədən getməsinə gətirib çıxara bilərmi?

- Əvvəlcədən də demişdik ki, Ukrayna ordusunun uğurları, qələbəsi Putinin hakimiyyətdən getməsi ilə nəticələnə bilər. Və bu məsələ də artıq reallaşmaqdadır. Təkcə Ukraynada deyil, bir sıra müxalif Rusiya mənbələrində də Putinin hakimiyyətdən gedəcəyi bir aksiom kimi təqdim olunur. Bu isə artıq ölkənin daxilindəki ab-havaya təsir etmək və ictimai rəyi buna hazırlamaq deməkdir. Yeri gəlmişkən, hətta Kreml təbliğatçılarının da tonu dəyişib. Artıq onlar tamam başqa şeylər danışır və başqa addımlar atırlar. Putinin əsas, şəxsi qoçusu olan Ramzan Kadırovun da ritorikası dəyişib. Eləcə də Putinin ən yaxın çevrəsindəki ən təsirli adamlar, görünən budur ki, artıq psixoloji baxımdan onun siyasi səhnədən getməyinə hazırdırlar. Bəs Putinin özü buna hazırdırmı? Mənə elə gəlir ki, yola salınmaq məqamı çatanda artıq onun rəyini soruşan olmayacaq... Onu da deyim ki, bəlkə də bu hadisə ilin axırından da tez baş verdi. Bunu da istisna etmirəm.

✍ ***Sultan Laçın***

ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana üçgünlük səfəri Azərbaycanda şübhəli qarşılandığı kimi, bölgə və dünya ölkələrində fərqli prizmalarda şərh edilir. Səbəb də budur ki, Pelosi heç vaxt Azərbaycana və Türkiyəyə dost münasibət sərgiləməyib və bütün fəaliyyəti ermənilərə hamiliklə keçib. Onun məhz indi - Ermənistan - Azərbaycan sərhədində məlum silahlı qarşıdurmanın baş verdiyi bir vaxtda İrəvanda peyda olması, Azərbaycanın ünvanına qatı düşmən fikirləri səsləndirməsi deməyə əsas verir ki, bəli, Pelosi məhz ermənilərlə həmrəylik nümayiş etdirməyə və Azərbaycana qarşı olduğunu lap elə sərhədin o tayından açıq-aşkar deməyə gəlib. Əslində, 82 yaşlı bu qoca qarı məramını verdiyi açıqlamalarla, qondarma soyqırım abidəsini ziyarət etməklə və hətta Türkiyənin ünvanına da sərsəmləməklə biruzə verib.

Pelosinin "araqarışdıran" Ermənistan səfəri

Çox maraqlıdır, bir sıra siyasət uzmanlarımız eyni fikri bölüşmürlər. Onlara görə, Pelosi Ermənistana Amerikadakı erməni lobbisinin rəğbətini qazanmaq, qarşıda yaxınlaşan seçkilərdə onların səsini əldə etmək məqsədilə gəlib. Olsun, fikir fərqliliyi çox yaxşıdır. Amma maraqlıdır, Pelosinin Ermənistan və və erməni sevgisi yalnız seçkiqabağı coşurmu, təbii ki, yox - bu qadın bütün ömrünü erməni yalanlarına ağlamağa həsr edib.

"Erməni mediası ABŞ Nümayəndələr Palatasnını spikeri Nensi Pelosinin səfərini Ermənistan-Azərbaycan sərhədində yaşanan gərginliklə əlaqələndirirlər. Lakin təşkilatçıların etirafına görə, Pelosinin Ermənistana səfəri bir neçə ay öncədən planlaşdırılıb. Ona görə də səfər və şərti ərhəddə toqquşma hadisələri arasında səbəb-nəticə əlaqəsi düzgün tərzdə təqdim edilməlidir: səfər sərhəd toqquşmasının nəticəsi yox, mümkün səbəblərindən biridir".

■ **Bu sözləri Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov deyib.** Onun sözlərinə görə, hərbi təxribatın Qarabağda yox, Ermənistan-Azərbaycan sərhədində baş verməsi, Ermənistanın Azərbaycanı "Qətiyyətli cavab" əməliyyatına təhrik etməsi, Fransanın hazırda sədrlik etdiyi BMT Təhlükəsizlik Şurasında tutduğu mövqedən yararlanaraq məsələni bu qurumun müzakirəyə çıxarması, Ermənistanın rədd cavabını alacağını bilə-bilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hərbi yardım üçün müraciət ünvanlaması, Paşinyanın Putin və Ərdoğanla görüşməmək üçün Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənd sammitinə getməməsi, erməni spiker Simonyanın atəşkəsin əldə edilməsində aparıcı rolun ABŞ-a məxsus olması və Ermənistanın digər ölkələrdən silah alacağına dair bəyanatları - birbirinin ardınca baş verən təsadüfi hadisələr zəncirvari deyil. Bütün bunlar anti-Rusiya əhval-ruhiyyəsini yaradaraq, Ermənistanın üzünü Qərbə tərəf çevirməyi nəzərdə tutan xüsusi əməliyyatın tərkib hissələridir.

"Bununla belə vurğulayaq ki, Nensi Pelosinin Ermənistan səfəri ABŞ qanunvericiliyinə görə əhəmiyyətli hesab olunmur. Nümayəndələr Palatası sədrinin daxili siyasətdə rolu olduqca böyükdür. Partiya təşkilatına sədaqət, partiya rəhbərliyi və partiya xətti ilə səsvermə də Senatdan daha çox bu qurumda müşahidə olunur. Nümayəndələr Palatasının spikeri prezident kürsüsündən sonra ikinci yüksək post olsa da, ABŞ tarixində heç bir spiker hələ bu yolla prezident seçilməyib. Buna rəğmən xarici siyasətdə istər spiker, istərsə də Konqres çox məhdud rol oynayır. Ali Məhkəmənin 1936-cı il tarixli qərarına əsasən ("U.S. s. Curtis-Wright Ex. Co." adlı məhkəmə işi), xarici siyasətdə əsas funksiya Prezidentə məxsusdur. Bu səbəbdən Nensi Pelosinin Ermənistan səfəri praktiki cəhətdən İrəvana faydası şübhəli görünür: spiker ABŞ adından müqaviləyə imza ata və ya Ermənistana kredit verə, İrəvana hərbi yardım vəd edə, Azərbaycanı isə sanksiyalarla hədələyə, hətta Konqresdə qanun aktlarının qəbul edilməsinə belə zəmanət verə bilməz. Çünki istənilən akt qüvvəyə minməsi üçün mütləq ABŞ prezidenti tərəfindən imzalanmalıdır", - deyib F.Məmmədov.

Ekspert deyib ki, Pelosi erməni kokusunun çoxdanki üzvü olsa da, erməni lobbisi tərəfindən irəli sürülən təşəbbüslərin əksəriyyətində iştirak etmir. Məsələn, Amerika Erməniləri Milli Konqresinin (ANCA) məlumatına görə, Pelosi 114-cü konqresdə (2015-2016) heç bir təşəbbüsü dəstəkləməyib, cəmi bir dəfə qondarma erməni "soyqırımının" Kapitolidə keçirilən xatirə tədbirində iştirak edib. 115-ci konqresdə Pelosi erməni diasporunun dəstəklədiyi 20-dən artıq təşəbbüsdən yalnız birinə - Türkiyə ilə bağlı qətnaməyə dəstək verib. 116-cı konqresdə dəstək yalnız "(qondarma) Erməni Soyqırımı Qətnaməsi"nə, 117-ci, yəni cari konqresdə isə "Armenian Genocide Education Act" daxil olmaqla erməni lobbisi tərəfindən irəli sürülən heç bir vacib təşəbbüs Nensi Pelosi tərəfindən dəstəklənməyib. F.Məmmədov qeyd edib ki, 2017-2018-ci illərdə Nensi Pelosi hətta Azərbaycanla əlaqəli lobbi təşkilatlarla iş birliyində şüphəli bilinirdi. Azərbaycan və Türkiyə ilə əlaqəli lobbi təşkilatları ilə işləyən parlament üzvlərinin adları "Barbour, Griffith & Rogers Group" şirkətinin hesabatında dərc edilmişdi. "Səfər həmçinin ABŞ-dakı erməni seçicilərinin demokratlar partiyasının ətrafında konsolidasiyasını hədəfləyir. Tarixən Ağ Evə sahib partiya növbəti ara seçkilərində adətən məğlub olur. Hazırda prezident Co Baydenin reytinqi 50 faizdən aşağıdır. Ekspertlər demokratlar partiyasının ara seçkilərdə bir və hətta iki palatanı itirə biləcəyini proqnoz edirlər. Seçkilərdə Ermənistana xoş münasibət bəsləyən Ağ Ev və Konqres haqqında xəyallarını tezliklə dağıda bilər", - F.Məmmədov deyib.

■ **Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin (CSSC) direktor müavini, politoloq Fuad Çıraqov da bildirib ki, Nensi Pelosinin ABŞ-da Konqresə seçkilər ərəfəsində nüfuzlu erməni lobbisinin könlünü almaq üçün İrəvana səfər etməsinə dair səslənən fikirləri dəstəkləyir.** "Vaxtilə, mərhum Bjezinski deyirdi ki, erməni lobbisi ABŞ-da üç güclü lobbidən biridir. Həqiqətən erməni lobbisi çox güclüdür və demokratlarla daha yaxın olmaları məlumdur. Qarşıdan gələn seçkilərdə demokratların şansı çox aşağıdır və onlar növbəti seçkilərdə hətta partiyanın maraqlarını dövlətin maraqlarından önə çəkirlər. Bu, Nensi Pelosinin Tayvan səfərində özünü daha bariz göstərdi. Amma bu səfərdə bir balaca əmma var. O qeyd edib ki, ABŞ-dakı erməni lobbisi daşnaklardan ibarətdir, onlar isə Nikol Paşinyana düşməndirlər. Daşnak lobbisi ilə Paşinyan arasında son zamanlar qalmaqallar da hamıya məlumdur. Nikol Paşinyan hökuməti bu yaxınlarda Fransanın məşhur daşnak lobbi liderlərindən birini persona non-qrata edib ölkəyə buraxmadı. Nensi Pelosinin bu səfəri isə daha çox Nikol Paşinyana dəstəkdir, nəinki lobbiyə. Erməni lobbisinin könlünü almaq üçün Nensi Pelosi daha böyük və ya başqa bir şey edə bilərdi. Ümid edək ki, seçkilərə qədər bunu etməyəcək. Bu səfər isə daha çox indiki administrasiyanın Nikol Paşinyanı nəyin bahasına olursa-olsun, hakimiyyətdə saxlamaq niyyəti ilə uyğun gəlir", - deyib F.Çıraqov.

> *115-ci konqresdə Pelosi erməni diasporunun dəstəklədiyi 20-dən artıq təşəbbüsdən yalnız birinə - Türkiyə ilə bağlı qətnaməyə dəstək verib*

> *ABŞ-dakı erməni lobbisi daşnaklardan ibarətdir, onlar isə Nikol Paşinyana düşməndirlər*

> *Bu işdə Fransa və ABŞ da Minsk Qrupunun fəaliyyətinin bərpası məqsədilə müəyyən mənada Ermənistana köməklik edirlər*

Politoloq xatırladır ki, əslində bir dəfə də belə olmuşdu. Hakim administrasiya ilk baxışda erməni lobbisinin istəyi ilə hərəkət etmişdi. Əslində isə Ermənistan dövlətinə yardım etməyə çalışmışdı. 2009-cu il Sürix protokolları imzalanan zaman ABŞ-dakı erməni lobbisi prosesin qəti olaraq əleyhinə idi. O zamankı Ermənistanın Xarici işlər naziri ABŞ-da şəhərləri bir bir gəzərək lobbi üzvləri ilə görüşüb prosesin əleyhinə çıxmamağa çağırırdı. Yəni, ABŞ erməni lobbisinin deyil, Ermənistan dövlətinin maraqlarına uyğun hərəkət etmişdi prosesi başlamaqla. "Demək ki, Vaşinqton regionla bağlı hansısa planlar qurur. Bayden administrasiyası əvvəl könlümüzü almaq üçün altı ay ərzində üç məktub göndərir, strateji dəyərimizdən, oynadığımız roldan, gələcək əməkdaşlıq perspektivlərindən, düzəlir dediyimiz anda birdən Azərbaycanı qıcıqlandırmaq üçün 2021-ci il ərzində işlətmədiyi "Minsk qrupu" sözünü dövriyyəyə soxur. Əcaba nə oldu birdən? Digər tərəfdən sual doğuran başqa məqam isə bir teleqram kanalında gedən məlumatdır. İddia edilir ki, bu səfər üçün təkcə Vardanyanın bankı vasitəsilə 75 milyon dollar ianə edilib. Vardanyan haqqında əlavə heç nə deməyəcəyəm, tanıyırsız, bu yaxınlarda Qarabağdakı çıxışını eşitmisiniz. Vardanyanla bağlı digər maraqlı məqam odur ki, adamın adı bu ilin yanvarın əvvəlində ABŞ Konqresinin sanksiyalar tətbiq edilməli olan rus oliqarxlarının siyahısında idi. Həmin siyahıda hamıya aşağı-yuxarı sanksiya tətbiq edildi, Vardanyandan başqa. Hər halda, Konqresə seçkilərdən sonra hər şey aydın olacaq", - F.Çıraqov qeyd edib.

Yeri gəlmişkən, Pelosinin səfəri ilə eyni vaxtda social şəbəkələrdə onun hərbi toqquşmalardan dərhal sonra İrəvana gəldiyinə dair ciddi müzakirələkər gedir. Bu məsələdə hətta Azərbaycan dövlətini passivlikdə ittihamlayanlar da az deyil.

■ **Bu məsələyə münasibət bildirən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) direktoru Fərid Şəfiyev diqqəti 30 il əvvələ çəkir: "Təbii ki, onlar Azərbaycana qarşı məlum 907-ci düzəlişin 1992-ci ildə məhz həmin Konqresdə o dövrdə Azərbaycanda hakimiyyətdə olan Elçibəy hökumətinə qarşı qəbul edildiyini unudublar.** Həmin il Ermənistanın Azərbaycana qarşı təcavüzü başladı və erməni birləşmələri Xocalıda soyqırımı törətdilər. Həmin fəallar bəlkə ABŞ və Fransa nümayəndələrinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə, məsələn Şuşaya niyə səfər etmədiklərini də izah edə bilərlər. Bəlkə bu hökumət onların yolunu bağlayıb? Ən son nə zaman ABŞ nümayəndəsi Azərbaycanın ərazi bütövlüyünün Ermənistanın təcavüzündən qorunmalı olduğuna dair fikir səsləndirib? Onlar bunu heç 1992-1993-cü illərdə də deməmişdilər. Halbuki, Birinci Qarabağ müharibəsində Ermənistana kimin hərbi dəstək göstərdiyi və 2016-cı ildə Azərbaycana kimin təzyiq etdiyi bəlli idi". O bildirib ki, bu günədək Azərbaycanın bütün nailiyyətləri, o cümlədən İkinci Qarabağ müharibəsindəki qələbə yalnız güc hesabına baş verib. BMTM sədri qeyd edib ki, işğalçı Ermənistan Azərbaycan torpaqlarını öz istəyi ilə tərk etməyib. Təəssüf ki, bu ölkə Azərbaycana qarşı iddialardan əl çəkməyib, hətta Brüsseldə bu və ya digər formada qondarma "DQ" məsələsini gündəmə gətirməyə çalışıb. Bu işdə Fransa və ABŞ da Minsk Qrupunun fəaliyyətinin bərpası məqsədilə müəyyən mənada Ermənistana köməklik edirlər. Rusiyanın da maraqları isə öz yerindədir.

"Biz bu günlərdə yenə də şəhid verdik. Bütün məsələləri yaxın zamanlarda həll etməliyik. Problemlər gələcək nəsilə miras qalmamalıdır. Reallıqdan uzaq olan şərhlərə uymamalıyıq" deyən F.Şəfiyevə görə, Azərbaycan xalqı çox çətin dövr yaşayıb, faciələr görüb. Onun fikrincə, biz ölkə daxilində hər hansı məsələ ilə bağlı mübahisə edə bilərik, amma xarici təzyiq və təhdidlərə qarşı mütləq birləşməliyik.

✍ ***Vüsal***

28 yaşlı "Əsrin müqaviləsi"

Sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasının 28-ci ildönümü tamam oldu. 1994-cü ildə Bakıda "Azəri-Çıraq-Dərinsulu Günəşli" (AÇG) yataqlar blokunun birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə altı ölkədən olan 11 xarici neft şirkəti arasında müqavilə imzalanıb. İlkin olaraq 30 il müddətinə imzanlanmış AÇG sazişi 12 dekabr 1994-cü il tarixində Milli Məclis tərəfindən qəbul olunub və 14 dekabr 1994-cü il tarixində qüvvəyə minib. Bu saziş keçmiş Sovet İttifaqının hər hansı bir ölkəsinə Qərb transmilli şirkətləri tərəfindən qoyulmuş ilk böyük investisiya olub və "Əsrin müqaviləsi" kimi tanınır.



Tarix

Saziş ratifikasiya olunduqdan sonra SOCAR və Azərbaycan hökuməti ilə əməkdaşlıq edən xarici səhmdarlar adından həyata keçirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılıb. İlkin olaraq ABƏŞ altı ölkəni, yəni Böyük Britaniya, ABŞ, Rusiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanını təmsil edən 11 iri xarici neft şirkətindən (BP, "Amoco", "Unocal", "LUKoil", "Statoil", "Exxon", TPAO, "Pennzoil", "McDermott", "Ramco" "Delta Nimir") təşkil olunmuşdu. 1999-cu ilin iyun ayından etibarən, BP ABƏŞ üzrə operatorluq fuksiyasını üzərinə götürüb.

Hazırda AÇG üzrə iştirak payları aşağıdakı kimidir: BP (30,37 %), SOCAR (25 %), MOL (16 aprel 2020-ci il tarixindən "Chevron" şirkətini əvəz edib (9,57 %), "Inpex" (9,31 %), "Equinor" (7,27 %), "ExxonMobil" (6,79 %), TPAO (5,73 %), "Itochu" (3,65 %), "ONGC Videsh Limited" (OVL) (2,31 %). AÇG yatağının işlənməsinin uğurunu nəzərə alaraq, Azərbaycan Hökuməti və AÇG tərəfdaşları düzəliş edilmiş və yenidən təsdiq edilmiş sazişi 14 sentyabr 2017-ci il tarixində imzalayaraq AÇG sazişinin müddətini əsrin ortalarına qədər uzadıblar.

Yeni saziş hökumətə və investorlara AÇG-nin Azərbaycan və şirkətlər üçün iqtisadi səmərəliliyini növbəti 30 il ərzində maksimum dərəcədə artırmağa və bu dünya səviyyəli yatağa 40 milyard ABŞ dollardan çox kapital qoymağa imkan verir. İndiyədək AÇG-yə 43 milyard ABŞ dollardan çox sərmayə qoyulub. Bundan sonra da bir o qədər investisiyanın xərclənməsi nəzərdə tutulur.

AÇG sayəsində Azərbaycan strateji enerji təchizatçısı kimi daha mühüm rol oynamağa başlayıb. Energetika Nazirliyinin məlumatlarına görə, "Azəri-Çıraq-Günəşli" yataqları istismara verilməndən bu ilin 1 sentyabr tarixinədək 560,2 milyon tondan çox neft çıxarılıb və 199 milyard kubmetrdən çox qaz hasil edilib.

2001-ci ildən etibarən bu ilin sentyabrın 1-nə kimi AÇG yatağından mənfəət neftinin satışından əldə edilən gəlirlərin həcmi 159,6 milyard ABŞ dolları olub. 2,4 milyard ABŞ dolları bonus ödənişləri nəzərə alınmaqla isə ümumi gəlirlər 162 milyard ABŞ dolları təşkil edir. Bu ilin əvvəlindən sentyabrın 1-nə kimi AÇG yatağından 6 milyard 629 milyon ABŞ dolları gəlir əldə edilib.

■ **"Hamıya məlumdur ki, 1994-cü ildə Azərbaycan iqtisadiyyatı bərbad formada idi. Amma bu şəraitdə dünyanın ən aparıcı neft şirkətlərinin "Əsrin Müqaviləsi"ni imzalayarkən yalnız bir inamı var idi ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlib və Ulu Öndər bu dövləti quracaq, onun rəhbərliyi altında iqtisadiyyat inkişaf edəcək, bu müqaviləyə də heç bir xələl gətirilməyəcək.**

Təsəvvür edin ki, həmin dövrdə 20-dən çox nəhəng Avropa və Amerika şirkətləri bu müqaviləyə imzalarını atdılar. Təbii ki, bu olduqca taleyüklü bir müqavilə idi. Bu müqaviləylə Azərbaycanın taleyi istər siyasi, istər iqtisadi cəhətdən tamamilə dəyişdi". Bu fikirləri hafta.az-a "Əsrin Müqaviləsi"nin tarixi və iqtisadi əhəmiyyəti barədə danışarkən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev deyib.

Millət vəkili vurğulayıb ki, bu müqavilə bugünkü reallıqlarımızın təməlidir: "Bu müqavilənin indiki Azərbaycanın müstəqilliyinə, dünyada tanınmağına, hətta deyərdim ki, müharibədə əldə etdiyimiz qələbəyə müsbət təsiri oldu. Bunun iqtisadi və maliyyə əsaslarını yaratdı. Azərbaycana milyardlarla dollar neft pulları axdı. Bu gün həmin yol davamlı olaraq inkişaf edir. Artıq biz qaz ixracatı, hətta tranziti ilə də məşğuluq. Eyni zamanda, Azərbaycan 10 nəhəng transmilli layihələr həyata keçirir, iki beynəlxalq standartlara uyğun dəniz limanları tikilib, multimodal nəqliyyat sistemi qurulub və s. Bütün bunlar onu göstərir ki, neft və qazdan gələn vəsaiti çox müdrik formada öz iqtisadiyyatımıza investisiya edirik. Nəticədə son 20 ildə Azərbaycan iqtisadiyyatını 4 dəfədən artıq inkişaf etdirib. Bu olduqca böyük rəqəmdir və artıq bu gün Azərbaycan dünyanın sayıb-seçilən ölkələrindən birinə çevrilib".

■ **"Əsrin müqaviləsi"nin əhəmiyyəti barədə danışan Neft Araşdırmaları Mərkəzinin rəhbəri, ekspert İlham Şaban bildirib ki, 28 il öncə imzalanan sənəd Azərbaycan çox böyük fayda bəxş edib.**

"Bu müqavilə sayəsində Azərbaycan neft-qaz sazişlərində beynəlxalq şirkətlərə özünü ciddi oyunçu kimi təqdim edə bildi. Bundan sonra Azərbaycan daha 36 müqavilə imzaladı. Onların realizə etapında nadir hadisə yaşandı. Belə ki, nə hökumət, nə Dövlət Neft Şirkəti, nə də müqaviləni imzalayan xarici şirkətlər sənədin icrası zamanı ona hansısa dəyişiklik və korrektə etdilər. Bu isə indi cənab Prezidentin dediyi kimi, bizim sözümüzün imzamız qədər kəsərli olması faktını hələ o zaman sübut etdi". Ekspertin fikrincə, "Əsrin müqaviləsi"nin ən böyük faydalarından biri sənayedə sosializmdən kapitalizmə keçidin başlanğıcı olub: "Buna qədər Azərbaycanda özəl kapital, özəl müəssisə deyilində ancaq kiçik və xırda müəssisələr nəzərdə tutulurdu. Bu baxımdan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının istismarından məsul olan Azərbaycan beynəlxalq əməkdaşlıqda kapitalizmin ilk nümunəsi oldu". İlham Şaban qeyd edib ki, Azərbaycanın "Əsrin müqaviləsi"ndən əldə etdiyi qazanc çoxşaxəli olub: "Müqavilə sayəsində Azərbaycan 1 sentyabr 2022-ci ilə qədər 162 milyard dollar mənfəət əldə edib. Həm hökumət vergilərdən qazanc götürüb, həm də Dövlət Neft şirkəti özünə düşən paya görə vəsait qazanıb. Hazırda Dövlət Neft Fondunda 45 milyard ABŞ dolları mövcuddu. Yerdə qalanların hamısı xərclənib. Xərcələmələrin 90 faizindən çoxu dövlət büdcəsinə transfer edilib.

> *Bu müqaviləylə Azərbaycanın taleyi istər siyasi, istər iqtisadi cəhətdən tamamilə dəyişdi*

> *Bu müqavilə sayəsində Azərbaycan neft-qaz sazişlərində beynəlxalq şirkətlərə özünü ciddi oyunçu kimi təqdim edə bildi*

> *Həmin sənədin imzalanması ilə Azərbaycanın gələcək neft strategiyasının deyil, bütövlükdə enerji strategiyasının çoxşaxəli əsası qoyuldu*

Neft Fonduna gələn gəlirlərin 95 faizini təkcə bu layihə təmin edir. Bu vəsait təbii ki, hər kəsin şəxsən cibinə daxil olmur. Ancaq hazırda nə görürüksə, nə ediriksə, həmin 162 milyarddan geriyə qalan 120 milyardın sayəsindədir. "Azəri", "Çıraq" və "Günəşli" layihəsi olmasa, həmin 120 milyardı haradan tapacaqdıq? Ölkəmizin, paytaxtımızın dəyişdirilməsini nəyin hesabına edəcəkdik?".

■ **"Düz 28 il bundan qabaq ölkəmizdə dünyanın ən nüfuzlu neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan sənəd imzalandı. Bu müqavilə Azərbaycan xalqının, çağdaş dövlətimizin taleyində müstəsna rol oynadı. Bu sənədin çox böyük siyasi, iqtisadi, tarixi əhəmiyyəti var. Bilirsiniz ki, Azərbaycanın dövlətçiliyi də o zaman təhlükəli durumda idi.**

Ulu Öndərimizin Azərbaycanda ikinci dəfə hakimiyyətə yenidən qayıdışı ilə bütün təhlükələrin qarşısı alındı. Təbii ki, Azərbaycanın daxilində sabitlik olmasaydı, heç bir dövlət, heç bir şirkət ölkəmizə sərmayə yatırmaqda maraqlı olmazdı. Ulu Öndərimiz bütün çətinliklərə baxmayaraq 1994-cü ildə işğalçı Ermənistanla atəşkəs imzalanmasına nail oldu. Və bu atəşkəs müqaviləsi sonradan Azərbaycan xalqının, dövlətçiliyinin tarixində önəmli səhifə açdı. Beləliklə, həmin razılaşmadan bir neçə ay sonra sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı". Bunu hafta.az-a açıqlamasında millət vəkili Məlahət İbrahimqızı bildirib.

Millət vəkili həmçinin deyib ki, sözügedən müqavilə Ulu Öndərin xalqına, xalqının taleyinə olan böyük sevgisinin, fədakarlığının məhsulu idi: "Həmin sənədin imzalanması ilə Azərbaycanın gələcək neft strategiyasının deyil, bütövlükdə enerji strategiyasının çoxşaxəli əsası qoyuldu. Bilirsiniz ki, bundan sonra Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum qaz layihəsi, TANAP, TAP və s. bütün bu böyük beynəlxalq səviyyəli layihələr məhz "Əsrin müqaviləsi"ndən qaynaqlanan layihələr idi. Və 94-cü ildən bu günə qədər olan proseslər də bir daha göstərdi ki, çağdaş dövlətimizin qurucusu Heydər Əliyev nə qədər uzaqgörən, müdrik bir insan imiş. Hazırda da bu siyasət cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq Azərbaycan təkcə enerji habına çevrilməyib, həmçinin nəqliyyat-logistika sahəsində də önəmli ölkələrdən birinə çevrilib. 44 günlük Vətən Müharibəsində qazandığımız qələbədən sonra da bilirsiniz ki, gündəmdə Zəngəzur dəhlizidir.

Biz bu layihəyə Vətən Müharibəsindən sonra gündəmə gəlmiş bir layihə kimi baxırıq. Amma biz Ulu Öndərimizin müxtəlif dövrlərdə etdiyi çıxışlara nəzər yetirəndə, Prezident İlham Əliyevin əvvəlki illərdəki fəaliyyətinə baxanda görürük ki, elə Zəngəzurun Azərbaycan üçün önəmli olduğu həmişə vurğulanıb. Və bu gün artıq bütün müstəvilərdə Zəngəzur dəhlizinin reallaşması məsələsi gündəmdədir. Hər kəs də buna inanır. Bir sözlə, məhz "Əsrin müqaviləsi" Azərbaycanın gələcəyi üçün açılmış böyük üfüq idi. Bu müqavilə Azərbaycan səmalarında daima günəşin parlayacağı gün idi. Məhz bu müqavilə nəticəsində indi Azərbaycan Avropa İttifaqı ilə enerji sahəsində strateji müttəfiq tərəfdaşdırlar. Bu gün münasibətilə bütün neftçiləri təbrik edirəm. Sözsüz ki, ən böyük neftçi də cənab Prezident İlham Əliyevdir".

✍ **Sevinc**

Manatın sabit məzənnəsi inflyasiyanın artmasının qarşısını alıb

Azərbaycanda manatın məzənnəsinin sabit saxlanılması inflyasiyanın daha sürətlə artmasının qarşısını alıb. Bu barədə Asiya İnkişaf Bankının (ADB) "Asian Development Outlook" hesabatının sentyabr sayında bildirilib. Bank bildirib ki, 2022-ci ilin birinci yarısında Azərbaycanda inflyasiya 2021-ci ilin eyni dövründəki 4,3%-dən illik 12,9%-ə yüksəlib.

Qlobal ərzaq qiymətlərinin yüksək inflyasiyası da ərzaq qiymətlərini artırıb. 2021-ci ildə yanacaq və digər kommunal xidmətlər üçün tariflərin artırılması xidmət sektorunda da inflyasiyanı artırıb. Sabit məzənnə isə inflyasiyanın daha da sürətlə artmasının qarşısını alıb: "Azərbaycan Mərkəzi Bankı mart ayında faiz uçot dərəcəsini iki addımda 50 baza bəndi artıraraq 7,75%-ə yüksəldib və inflyasiya təzyiqinin azaldılması ilə bu göstəricini iyul ayına qədər saxlayıb".

> Azərbaycan Mərkəzi Bankı mart ayında faiz uçot dərəcəsini iki addımda 50 baza bəndi artıraraq 7,75%-ə yüksəldib və inflyasiya təzyiqinin azaldılması ilə bu göstəricini iyul ayına qədər saxlayıb

Sənəddə bildirilib ki, ilin birinci yarısında inflyasiyanın artmasını nəzərə alaraq Bank 2022-ci il üçün inflyasiya ilə bağlı proqnozunu artırıb. İdarə olunan kommunal qiymətlərin dəyişməz qalacağı gözlənildiyi üçün 2023-cü il üçün inflyasiya proqnozunu isə dəyişməz saxlayıb. Asiya İnkişaf Bankı (ADB) 2022-ci ildə Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) artım proqnozunu yaxşılaşdırıb. Məlumata görə, Bank aprel proqnozu ilə müqayisədə ÜDM-in artım proqnozunu 0,5 faiz bəndi artıraraq 4,2% müəyyən edib. 2023-cü il üzrə isə bu göstərici dəyişməyərək 2,8% saxlanılıb.

Asiya inkişaf Bankı (ADB) bu il Azərbaycanda inflyasiya proqnozunu artırıb, onun 11,5% olacağını proqnzolaşdırır. Belə ki, ADB inflyasiya proqnozunu aprel göstəricisi ilə müqayisədə 4,5 % bəndi artıraraq 11,5%-ə çatdırıb. Bu göstərici 2023-cü il üzrə isə 1,7 % bəndi artırılaraq 7% müəyyən edilib.

✍ **Sevinc**

■ **Ləğv edilmiş Milli Təhlükəsizliyi Nazirliyinin (MTN) Baş İstintaq İdarəsinin rəisi, general-mayor Mövlam Şixəliyev, istintaq idarəsinin rəis müavini, 1-ci şöbənin rəisi Yasin Məmmədov, istintaq idarəsinin 2-ci şöbənin rəisi, polkovnik Vüsal Ələkbərov və istintaq idarəsinin metodiki yardım və kriminalistika şöbəsinin rəis müavini Sahib Ələkbərovun cinayət işi ilə bağlı məhkəmə araşdırması başa çatıb.**

Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Mövlam Şıxəliyev 12 il, Yasin Məmmədov 10 il 6 ay, Vüsal Ələkbərov 11 il 2 ay, Sahib Ələkbərov isə 8 il müddətinə azadlıqdan məhrum ediliblər.

■ **Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan ərazisində basdırdıqları minaların aşkar edilərək zərərsizləşdirilməsi istiqamətində görülən işlər davam edir.**

Bu barədə hafta.az-a Müdafiə Nazirliyindən məlumat verilib. Sentyabrın 20-də mühəndis-istehkamçılarımız tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində Laçın rayonu ərazisində Böyük İşıqlı dağının dərə boşluğunda 2021-ci ildə Ermənistanda istehsal edilmiş növbəti 90 ədəd G-001 M tipli piyada əleyhinə mina aşkar edilərək zərərsizləşdirilib. Azərbaycan Ordusunun mühəndis istehkam-bölmələri qarşı tərəfin minaladığı ərazilərimizin təmizlənməsi üzrə fəaliyyətlərini yüksək peşəkarlıqla davam etdirir.

■ **Milli Məclisin İnsan hüquqları komitəsində ""Ekstradisiya haqqında" Avropa Konvensiyasına Dördüncü Əlavə Protokolun təsdiq edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarılıb.**

Qanun layihəsinə əsasən, qeyd olunan əlavə Protokol "Ekstradisiya haqqında" Avropa Konvensiyasının bir sıra müddəalarının müasirləşdirilməsi və onların tamamlanması məqsədilə hazırlanıb. Bu protokola Konvensiyanın 10-cu (müddətin keçməsi), 12-ci (sorğu və əlavə sənədlər), 14-cü (konkretlik qaydası), 21-ci (tranzit) maddələri yeni revaksiyada verilir. 15-ci (üçüncü dövlətə verilmə) maddəyə isə yeni bənd əlavə olunur. Bundan başqa, Konvensiyaya kommunikasiya kanalları və vasitələri, habelə dostcasına həlledilmə adlı yeni müddəaların əlavə olunması nəzərdə tutulur.

■ **Azərbaycanda "ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan 2022-ci ilin sentyabr ayına qədər istehlakçılara ümumilikdə 732 milyon 105 min 401 kassa çeki üzrə 305,5 milyon manatdan çox, təkcə bu ilin yanvar-avqust aylarında isə 303 milyon 851 min 384 cek üzrə 133,6 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb.**

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti məlumat yayıb. Məlumata görə, bu günə qədər alınmış mallara görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması üçün <www.edvgerial.az> portalında 1,9 milyondan çox istifadəçi qeydə alınıb. Hazırda ölkə üzrə tətbiq edilən onlayn nəzarət-kassa aparatlarının (NKA) sayı 74 min 242-dir.

■ **"Hazırda ölkədə mövcud xəstəxanaların 90 faizdən çoxu özünü maliyyələşdirməkdə çətinlik çəkir". Bunu İcbari Tibbi Sığorta Agentliyinin Strateji Təhlil departamentinin rəhbəri Araz Nəsirov "Azərbaycanda icbari tibbi sığorta mexanizmlərinin gücləndirilməsi" tvininq layihəsinin açılış mərasimində deyib.**

O bildirib ki, gələcəkdə xəstəxanaların resuslarının və imkanlarının səmərələşdirmək və özünümaliyyələşdirmə səviyyəsinə çatdırmaq istəyirlər: "Tvininq layihəsi çərçivəsində bu istiqamətlərdə beynəlxalq təcrübəni öyrənmək və tətbiq etməyi planlaşdırırıq. Həmçinin Avropanın aktual hesablamalarını tətbiq etmək istəyirik. Çünki bizim hesablamalarla Avropanın hesablamaları uyğunlaşdırılmalıdır".

■ **Afrika və Amerika həkimləri meymunçiçəyi virusuna yoluxmanın neyrofizioloji fəsadların inkişafına səbəb olduğuna dair sübutlar aşkar ediblər.**

Alimlərin tapıntıları "JAMA Neurology" jurnalında dərc olunub. "Afrika, ABŞ və Avropada xəstələr üzərində aparılan müşahidələr göstərir ki, meymunçiçəyi virusu xəstələrdə kifayət qədər tez-tez depressiya, nevropatik ağrılar yaradır.

Bəzi hallarda ensefalit, qıcolma və meningitə bənzər simptomlar əmələ gətirir. Bu, beyindəki dəyişiklikləri izləmək zərurətindən xəbər verir", - tədqiqatda vurğulanıb. ÜST statistikasına görə, sentyabrın əvvəlində yoluxma hallarının ümumi sayı 53 mini keçib. 18 nəfər xəstəlikdən dünyasını dəyişib./oxu.az

Gələn ay bal yarmarkası başlayır

Son illər Azərbaycanda arıçılıqla məşğul olan insanların sayı artıb. Hazırda ölkəmizdə 620 min arı ailəsi, 25 min nəfər arıçı qeydiyyatdadır. Mütəxəssislər hesab edirlər ki, ölkəmizdə arıçılığın inkişaf etdirilməsi üçün kifayət qədər əlverişli iqlim şəraitinin mövcudluğu və işğaldan azad olunan ərazilərdə arı ailələrinin yerləşdirilməsinə imkan yaradılması gələcəkdə arı ailəsinin sayının daha da artmasına şərait yaradacaq. "Həftə içi" qəzeti olaraq Azərbaycan Arıçılar Assosiasiyasının prezidenti Bədrəddin Həsrətovla ölkəmizdə arıçılığın mövcud vəziyyəti, problemləri, gələcək perspektivləri və digər məsələlər ətrafında söhbət aparmışıq.

Bədrəddin Həsrətov,
Azərbaycan Arıçılar Assosiasiyasının prezidenti

Müsahib

- Bədrəddin müəllim, bildiyimiz kimi, bu yaxınlarda ermənilər tərəfindən Kəlbəcər, Laçın, Zəngilan istiqamətində sərhədboyu geniş miqyaslı təxribatlar törədildi. Baş verən hadisə işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən arı təsərrüfatlarının işinə təsir göstəribmi? Ümumiyyətlə həmin ərazilərdə arıçılığın hazırki durumunu necə dəyərləndirirsiniz?

- Baş verən hadisələrdən biz də çox narahat idik. Hadisə baş verməmişdən əvvəl bizim arıçıların 90 faizi dağda bal toplayıb arılarını artıq aran zonasına gətirmişdilər. Hazırda həmin ərazilərdə çox az arı təsərrüfatımız var, onlar da təhlükəsiz yerdədirlər. Ümumiyyətlə, işğaldan azad olunan ərazilər arıçılıq üçün olduqca əlverişlidir. Biz də bunu nəzərə alaraq Qarabağ bölgəsinə təxminən 20 minə yaxın arı ailəsi yola salmışdıq. Bu layihədə təxminən 300 arıçı iştirak edirdi. Həmin arıçıların da təqribən 250-si məhsulu toplayaraq aran zonasına qayıdıblar. Hazırda 50-yə qədər arıçı Qarabağ bölgəsindədir. Onlar üçün də heç bir təhlükə yoxdur, tam təhlükəsiz ərazidədirlər. Əslində onların yerləşdirilməsində əvvəlcədən baş verəcək bütün nüanslar nəzərə alınmışdı. Onlar sərhədə yaxın əraziyə, minalı sahələrə buraxılmayıblar. Həmin şəxslərə ANAMA tərəfindən təlimlər keçirilib və hazırda da fəaliyyətlərini minasız, təhlükəsiz ərazidə davam etdirirlər. Demək olar ki, işğaldan azad olunmuş ərazilərə ilk cığır açan arıçılıq təsərrüfatları olub. Düzdür, müəyyən qədən heyvandarlıq təsərrüfatları da var. Amma onların sayı arı təsərrüfatları qədər deyil. Məsələn, keçən il ora iki min arı ailəsi köçürülmüşdüsə, bu il iyirmi mindən çox arı ailəsi köçürülüb.

Gələcək üçün işğaldan azad olunan ərazilərdə 300 min arı ailəsini yerləşdirməyi planlaşdırırıq. Bu, kiçik bir rəqəm deyil. Gələcək üçün 4-5 min ton əlavə bal deməkdir. Gələcəkdə biz balımızın yarısını ixrac edəcəyik. Çünki indi biz daxili tələbatı artıqlaması ilə ödəyirik. Qarabağda, Şərqi Zərgəzurda istehsal olunan bal istehlakdan artıq olacaq ki, bunun da ixraca yönəldilməsi ölkəyə əlavə valyuta axını deməkdir. Bir şeyi də deyim ki, Sovetlər dönəmində Laçın, Kəlbəcər balı çox məşhur olub. Bu gün də həmin ərazi arıçılıq üçün əlverişlidir. Ümumilikdə isə Azərbaycanın bütün əraziləri arıçılıq üçün əlverişlidir.

- Artıq arıçılıqda məhsul yığımı başa çatıb. Bu il məhsuldarlıq necədir?

- Deməzdim ki, ili yüksək səviyyədə başa çatdırdıq. Ötən illə müqayisədə məhsuldarlıq müəyyən qədər aşağı oldu. Məhsuldarlığın aşağı olması bu yazın daha çox yağmurlu olması, soyuq keçməsi ilə əlaqədar idi. Arıların yaz inkişafı ləng getdi. Amma sonra temperatur düzəldi və arılarda inkişaf sürətləndi, müəyyən qədər bal toplandı. Amma ümumilikdə elə bölgələr var ki, onlarda məhsuldarlıq yüksək olub, elə bölgələr də var ki, aşağı olub. Hər bölgənin özünə məxsus bitki örtüyü olduğundan məhsulu da fəqrlidir. Məsələn, biz əvvəl elə bilirdik ki, aran zonasında yaxşı bal əldə etmək olmaz. Amma sonradan gördük ki, bu zonanın da biyan balı, dəvətikanı balı və s. kimi özünəməxsus faydalı balı var. Yəni, Azərbaycanın hər bir zonası arıçılıq təsərrüfatını inkişaf etdirmək üçün əlverişli iqlimə, bitki örtüyünə malikdir.

Ümimilikdə isə ölkə üzrə orta məhsuldarlıq bu il 10-15 kq civarındadır. Amma ötən illərdə bu heç 10 kq-ya çatmırdı. Təqribi hesablamalarımıza görə, Azərbaycanın hazırda 5 min ton bala ehtiyacı var. Söhbət istehlakçı tələbindən gedir.

- Ənənəvi bal yarmarkası bu il nə vaxta planlaşdırılır?

- Bu il Respublika Arıçılarının sərgi-satış yarmarkası oktyabrın 1-dən 20-dək Gənclik metrostansiyasının çıxışında təşkil olunacaq. Demək olar ki, Azərbaycanın bütün bölgələrindən olan arıçılar bu yarmarkada təmsil olunacaqlar.

Və məhsullar Qida Təhlükəsizliyi Agentliyində laborator müayinələrdən keçdikdən sonra yarmarkada satışına icazə veriləcək. Müvafiq standartlara uyğun gəlməyən heç bir məhsul bazara buraxılmayacaq. Belə götürsək, ildə bir dəfə respublikanın bütün bölgələrinin arıçılarının balı nümayiş olunacaq. Bu da bir şansdır ki, Azərbaycan alıcısı, əsasən də Bakı şəhərində yaşayanlar bütün bölgələrin ballarını bir arada görə biləcək. Yarmarkada 250 arıçı iştirak edəcək və bazara təxminən 100 ton bal çıxarılacaq.

- Qiymətlər neçə olacaq? Artım varmı?

- Bəli, müəyyən qədər bahalaşıb. Çünki bütün digər qiymətlərdə də artım var. Hazırda balın maya dəyəri daha baha başa gəlir. Arıçılıqda istifadə olunan alətlər, dərmanlar xaricdən gəlir. Bütün ölkələrdə qiymət artımı gedir. Son on ilin statistikasına baxıram, bütün qiymətlər dəfələrlə qalxdığı halda balın qiyməti demək olar ki, qalxmamışdı. İndi isə müəyyən qədər balın satışında artım müşahidə olunur və olunacaq. Bu, ümumi qiymətlərin artımına bağlıdır, arıçıya bağlı deyil. Deməzdim ki, bahalaşma dəfələrlə olacaq. Ötən il 1 kiloqramın qiyməti 25-30 manat idisə, bu il 30-35 manat olacaq. Bu qiymət yəqin ki, yarmarkanın ilk günlərində olacaq. Yarmarkanın ortalarına doğru qiymətlərdə müəyyən qədər endirimlər ola bilər.

- Xarici bazarlara çıxış imkanlarının hansı səviyyədədir? Dünya bazarlarında Azərbaycan balına tələbat varmı?

- Azərbaycan balına dünyada da maraq artmağa başlayıb. Son illər az miqdarda da olsa, ərəb ölkələrinə göndərilir, bir az da Yaponiyaya gedir. Avropa ölkələrinə isə hələ ki, çıxış imkanımız yoxdur. Azərbaycandan heyvan mənşəli qidalar almırlar. Buna qadağa var.

Qida Təhlükəsizliyi Agentliyi bu istiqamətdə danışıqlar aparır. Güman edirik ki, həmin danışıqlar uğurla nəticələnəcək və qadağa aradan götürüləcək. Biz yavaş-yavaş ixraca doğru getməliyik. Bazar araşdırmaları davam edir. Bir çox ərəb ölkələrində, Avropa ölkələrində bazar araşdırmaları aparırıq. İsrailə nümunələr göndərilib. Bəzi arıçılarımız ABŞ-dakı alıcılarla danışıqlar aparırlar. Çünki artıq tələbatdan artıq məhsul istehsal etdiyimizdən bizə yeni bazarlar lazımdır. Məsələn, bu günə olan rəqəmlərə görə, 7 min tondan artıq məhsul istehsal olunub. Ötən il isə bu rəqəm 6 min tondan bir az artıq idi.

- Assosiasiya son dövrlərdə hansı işlərlə məşğuldur? Hansı yeniliklərin var?

> *"Məhsuldarlığın aşağı olması bu yazın daha çox yağmurlu olması, soyuq keçməsi ilə əlaqədar idi*

- Bu il avqustun 24-dən 27-nə qədər İstanbul şəhərində Dünya Arıçılarının Simpoziumu keçirildi. Tədbirdə biz də iştirak edib, bal yarışmalarına qatıldıq. Azərbaycan balı 141 ölkə içində bürünc medal alaraq üçüncü oldu. İlk dəfə idi ki, biz belə bir müsabiqəyə qatılırdıq. Mən ilk onluğa düşsək belə, yetər deyə düşünürdüm. Amma bizim adımız medallar sırasında səslənəndə qulağımıza inanmadıq. Çünki daha çox iddialı, güclü ölkələr var idi. Türkiyə, İran kimi milyonlarla arı ailəsi olan ölkələr, Çin kimi dünyanın arıçılıq nəhəngi... - bütün bunlara baxmayaraq biz ilk üçlüyə düşdük. Azərbaycan balı ilk yarışmada bu uğuru qazandı. Düşünürəm ki, növbəti il hətta qızıl medal ala bilərik.

✍ ***Sevinc***

Şuşa və Ərzurum şəhərləri qardaşlaşıb

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və Ərzurum Böyükşəhər Bələdiyyəsi arasında iki dost və qardaş ölkə kimi strateji tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu nəzərə alaraq qardaşlaşmış şəhərlər haqqında protokol imzalanıb.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən APA-ya verilən xəbərə görə, protokol qardaşlaşmış şəhərlər arasında mədəni, sosial və iqtisadi münasibətləri, həmçinin dostluq və qardaşlıq əlaqələrini təşviq etmək və birgə fəaliyyət sahələrini genişləndirməyi əsas tutur.

Tərəflər arasında birgə proqram, layihələr, qarşılıqlı səfərlərin təşkili, habelə təcrübə və məlumat mübadiləsi, bərabərlik, dostluq, qardaşlıq və ümumi maraq prinsiplərinə uyğun olaraq, incəsənət, mədəniyyət, turizm, elm, ticarət və informasiya texnologiyaları sahələrində əməkdaşlıq nəzərdə tutulub.

Sənədi Ərzurumda səfərdə olan Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov və Ərzurum Böyükşəhər Bələdiyyəsinin başçısı Mehmet Sekmen imzalayıblar.

Tədbirdən sonra Ərzurum valisi Okay Memişlə də görüş baş tutub. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov qardaşlaşmış şəhərlər protokolunun ilk dəfə Ərzurum ilə imzalanmasının xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirib ki, bu il Azərbaycanda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olunub. Gələn il isə Şuşa şəhəri TÜRKSOY-un qərarı ilə Türk dünyasının mədəniyyət paytaxtı elan edilib. Buna görə də Türk dünyasının mərkəzlərindən biri sayılan Ərzurum ilə mədəni, siyasi və iqtisadi əlaqələrin qurulması vacibdir. Ərzurum valisi Okay Memiş Şuşanın bütün türk dünyasının qəlbində xüsusi yer tutduğunu qeyd edərək, əziz Şuşa ilə istənilən tədbir və birgə fəaliyyətlərin başlanmasını valilik üçün mühüm missiya olduğunu bildirib. Daha sonra Məftun Abbasov ilə Ərzurum Atatürk Universiteti və Ərzurum Texniki Universitetinin rektorları arasında görüş baş tutub. Görüşdə qarşılıqlı təcrübə mübadiləsinin aparılması haqqında ətraflı danışılıb.

Sentyabrın 27-də tarixi zəfərlə yekunlaşan və 30 illik işğala, yurd həsrətinə son qoyan Vətən müharibəsinin başlamasından 2 il keçir. 44 gün davam edən Azərbaycan ordusunun qəhrəmanlıq salnaməsini müzəffər Ali Baş Komandan başda olmaqla Vətən uğrunda canlarından qanlarından keçən şəhid və qazilərimiz yazdılar. Ali Baş Komandanın bir çağırışı ilə minlərlə Azərbaycan gənci könüllü olaraq ordu sıralarına yazıldı. Prezidentin Vətəni müdafiə çağırışına səs verərək, Müzəffər Azərbaycan Ordusunun sıralarında 44 günlük Vətən Mühzaribəsində iştirak edən qazilərimizdən biri də Həsən Sabir oğlu Baxşalıyevdir.

Vətən müharibəsində iki dəfə yaralanan qazimizin döyüş yolu

Həsən əslən Laçın rayonundandır. Lakin Bərdə şəhər Mahir Cəfərov 50 ünvanında doğulub, boya-başa çatıb. Deyir, doğma el-obasını işğal müddətində görməsə də, hər zaman xəyallarında Laçının dağlarında, meşələrində gəzib. O, səfalı yerləri bir dəfə də olsa görmək arzusu ilə yaşayıb. "Ali Baş Komandanın torpaqlarımızı işğaldan azad etmək üçün çağırışını eşidəndə bu arzumun həyata keçəcəyinə qəlbimdə böyük inam hissi yarandı. Heç bir şey dşünmədən könüllü şəkildə ordu sıralarına yazıldım", - deyir qazimiz.

Qeyd edək ki, Həsən evin tək övladıdır. Könüllü olaraq orduya yazıldığını ata-anasından belə gizlədib.

Qazimizin döyüş yolu Suqovuşan uğrunda ağır döyüşlərdən başlayıb. Bu istiqamətdə gedən qanlı döyüşlərdə iki dəfə yaralanıb. İlk dəfə yaralandıqdan sonra, qısa zamanda yenidən ordu sıralarına dönərək düşmənə qarşı haqq mübarizəsində, torpaqlarımızın işğaldan azad olunması kimi müqəddəs vəzifənin yerinə yetirilməsində iştirak edib.

Onun sözlərinə görə, şiddətdli döyüşlərin getdiyi bir zamanda kri ilə döyüşlərə atılırdıq. 44 günlük müharibədə ordumuzda, xalqımızda olan birlik və həmrəylik, Ali Baş Komandanımızın güclü dəmir iradəsi bizə ilham verirdi. Azərbaycan əsgəri arxasında güclü liderinin, xalqının, dövlətinin dayandığını bilirdi".

Həsən öz döyüş yolundan da danışır. Bildirir ki, hərbi əməliyyatların başlandığı ilk gün Suqovuşan istiqamətində hücum təşkil edildi:

"Mən də bu qüvvələrin tərkibində idim. Bir az irərilədikdən sonra şiddətli döyüşlər başladı. Düşmən bizim birliklərimizi minaatan atəşinə tutdu. İlk dəfə oktyabrın 3-də yaralandım. Bir neçə gün hospitalda müalicə olunduqdan sonra, yenidən öz hərbi hissəmə qayıdıb döyüşlərdə iştirak etmək istədiyimi bildirdim. Lakin oktyabrın ortalarında yenidən yaralandım. Hospitalda olduğum zaman hərbi xidmət dövründə komandirim olmuş baş leytenant Həsən Rzazadə zəng edərək Laçın rayonunun işğaldan azad edilməsinə başlanıldığını xəbər verdi. Bu xəbəri böyük sevinc hissi ilə qarşılasam da, iki gündən sonra Həsən Rzazadənin şəhid xəbərini aldım... Bu gün təsəllimiz odur ki, döyüş yoldaşlarımız, dostlarımız Vətən uğrunda şəhid olublar. Onların qəhrəmanlıqları torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi. Allah bütün şəhidlərimizə rəhmət eləsin...".

yoldaşlarından şəhidlərimiz, yaralılarımız olsa belə heç kim bir addım da olsun geri çəkilmək barədə fikirləşməyib.

"Döyüş yoldaşlarımdan leytenant Pərvin Əlizadə şəhid oldu... Bu, hər birimizdə düşməndən qisas hissini daha da alovlandırdı...". Döyüş əməliyyatlarının çox çətin coğrafi relyefdə aparılmasına baxmayaraq, Azərbaycan əsgəri daim irəliyə addımlayıb.

"Heç birimizdə qorxu hissi yox idi. 30 il həsrətini çəkdiyimiz torpaqlarımızı azad edib irəlilədikcə, Vətənə olan sevgimiz daha da artırdı. "Bir addım da irəli gedək" fi-

Qeyd edək ki, Həsən Baxşalıyev Ağdərə-Tərtər istiqamətlərində döyüşlərdə göstərdiyi rəhadətə görə Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə "Suqovuşanın azad edilməsi", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

✍ ***Azad Əliyev***

Salatın Əsgərovanın qatilini "qəhrəman" kimi təqdim etdilər

Onlarca Azərbaycan hərbçisini qətlə yetirmiş erməni qadın snayperin öldürülməsini dünyaya car çəkən hayklar 1991-ci ilin yanvarında Milli Qəhrəman jurnalist Salatın Əsgərovanı və onunla eyni avtomobildə olan 3 hərbçisini qətlə yetirmiş terrorçu dəstənin başçısının fotosunu və tərcümeyi-halını paylaşaraq onu qəhrəman kimi təqdim ediblər. Hafta.az-ın araşdırmasından bəlli olur ki, sosial şəbəkələrin erməni seqmentində payaşılmış məlumatda söhbət Şuşa rayonunun sovet dövründə Kirov, hazırda hayklar tərəfindən "Hinşen" adlanan Kiçik Qaladərəsi kəndinin 1953-cü il təvəllüdlü sakini Mkrtçyan Arno Mikayeloviçdən gedir.

Araşdırma

Məlumatda Gorusda Pedaqoji İnstitutunun fizika fakültəsini bitirmiş Arnonun 1988-ci ildən kənddə özünümüdafiə dəstəsinə rəhbərlik etməyi, kustar üsulla silah-sursat düzəltməyi etiraf olunur. Keçmiş DQMV ali sovetinin deputatı olan A.Mkrtçyan 1991-ci il mayın 15-də Azərbaycan "OMON"-u və SSRİ daxili qoşunlarının hərbi qulluqçularının keçirdiyi "Həlqə" əməliyyatı zamanı həbs edilib. Terrorçu 1993-cü il sentyabrın 20-də Bakı həbsxanasında ölüb.

Hayk terrorçusunun ölümündən sonra ona 1-ci dərəcəli döyüş xaç ordeni ilə təltif edildiyi bildirilir.

Təbii ki, ermənilər Arnonun Salatın Əsgərova və Azərbaycanı digər dinc sakinlərinin qətlində iştirakı qeyd olunmur. Ancaq hələ SSRİ-nin mövcud olduğu 1991-ci ilin may-iyun aylarında Azərbaycan DİN-in rəhbər şəxsləri tərəfindən tərtib olunmuş hesabatlarda Milli Qəhrəman, jurnalist Salatın Əsgərova və 3 rus hərbçisinin də məhz Qaladərəsi və Kirov kəndlərində toplanmış erməni terrrorçuları tərəfindən edilən silahlı hücum nəticəsində qonşu Yexsaox(Sarıbaba, yaxud Salatınkənd) kəndində məhz Arno Mkrtçyanın başçılıq etdiyi dəstə tərəfindən qətlə yetirildiyi vurğulanır.

1991-ci ilin mayında Dağlıq Qarabağın erməni ekstremistlərindən təmizlənməsi üçün aparılan "Ümid" adlı hərbi milis əməliyyyatının qərargah rəisi təyin olunmuş istefada olan polkovnik Əzim Piriyevin müəllifi olduğu "Yarımçıq qalmış "Ümid" əməliyyatı" sənədli povestində dərc olunmuş və müəllifin özü tərəfindən 16 may 1991-ci il tarixində hazırlanmış hesabatda deyilir:

"..."Molodyoj Azerbayjana" qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun öldürülməsində 8 nəfər iştirak edib. Onlardan 3-ü Yerevan şəhər sakinləridir: "Kristal" zavodunun fəhlələri Sasun və Andronik, Noradmane mikrorayonunun Şirak adlı sakini. Digər iki nəfər - Kirov kəndinin sakinləri Arno Mkrtçyan və Varujan Nasibyan olublar.

Daha sonra iyunun 1-də bilavasitə Azərbaycan Daxili İşlər naziri Məhəmməd Əsədovun adına yazılmış hesabatdan isə bəlli olur ki, Salatın Əsgərovanın qatillərindən olan Arno Mkrtçyanın atasının Kirov kəndindəki evindən onun Ermənistandakı terrorçu "Amaras" təşkilatının üzvü olması haqda sənəd tapılıb. Bundan əlavə, müəyyən olunub ki, həmin Arno Mkrtçyanla bərabər Kirov kəndinə gəlmiş 7 ermənistanlı müvəqqəti olaraq həmin kəndin sakinləri kimi qeydiyyata alınıb.

Hesabatlarda Qaladərəsi və Kirov kəndlərində saysız-hedsabsız atıcı silahlar, müxtəlif kalibrli patronlar, qumbara və minalar, radistansiyalar və s. aşkar edilməsi qeyd olunur".

Onu da qeyd edək ki, 1990-cı il oktyabrın 21-də Kirov kəndi ilə qonşu Ağanus kəndi ərazisində mal-qara otaran kənd sakini Təvəkkül Məhərrəmov da bilavasitə adı çəkilən Arno Mkrtçyan tərəfindən qətlə yetirilib.

Allah şəhidlərimizə rəhmət, baiskar və icraçılara lənət eləsin!

✍ ***Sultan Laçın***

HƏFTƏ REYTİNQ

Həftənin ÜZRÜ

"Parisdəki Azərbaycan səfirliyini hədəf alan qəbuledilməz insidentlərdən təəssüflənir". Bu barədə məlumatı Fransa XİN-in adından bu ölkənin Azərbaycandakı səfiri Zakari Qross öz tvitter hesabında paylaşıb. "Fransa səlahiyyətliləri səfirliyin təhlükəsizliyini bərpa etmək və onun normal fəaliyyət göstərməsi üçün bütün tədbirləri görüblər. Belə hadisələrin bir daha təkrarlanmaması üçün ayıq-sayıqdırlar", - deyə məlumatda qeyd edilir.

Həftənin MƏRHUMU

Azərbaycanın dostu, tanınmış yəhudi ekspert Arye Qut dünyasını dəyişib. O, uzun müddət xərçəng xəstəliyindən əziyyət çəkib. A. Qut 1975-ci ildə Bakıda anadan olub. A.Qut həm İsrail, həm Azərbaycan mətbuatı ilə fəal şəkildə əməkdaşlıq edib. O, Türkiyə -İsrail münasibətləri, İsrail - Azərbaycan strateji tərəfdaşlığı, Cənubi Qafqazda geosiyasi vəziyyət, eləcə də Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı 700-dən artıq analitik məqalələrin müəllifidir.

Həftənin GÖRÜŞÜ

BMT Baş Assambleyasının 77-ci sessiyası çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsrailin Baş naziri Yair Lapidlə görüşüb. Görüşdə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu, Milli Kəşfiyyat Təşkilatının sədri Hakan Fidan və Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın da iştirak edib.

Həftənin BİABIRÇILIĞI

ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosi Ermənistana səfər edib. Amerikalı nümayəndə Ermənistanda brifinqdə çıxışı zamanı gözləmədiyi halla üzləşib. Belə ki, erməni tərcüməçi Pelosinin danışmasına imkan verməyərək, onu tribunadan itələyib və tərcüməyə başlayıb.

Həftənin VİDEOSU

"Qarabağ"ın futbolçusu Kevin Medina "Nant"la oyundan (3:0) sonra maraqlı videosu ilə diqqət çəkib. Təcrübəli müdafiəçi sözügedən videoda Fransa klubuna ismarış göndərib. Futbolçu videoda "Bağışla, "Nant", bura Azərbaycandır!" deməklə, qonaq komandalar üçün Bakıda qələbə qazanmağın çətin olduğuna işarə vurub.

Həftənin QƏZASI

Tanınmış türkiyəli aparıcı, TV8 telekanalının sahibi Acun Ilıcalı motosiklet qəzası keçirib. Liv Hospital Vadistanbul xəstəxanasına aparılan Ilıcalının səhhətinin yaxşı olduğu öyrənilib. Onun qarşı tərəfdən gələn avtomobillə toqquşduğu bildirilir.

Həftənin GÖZƏLİ

Türkiyədə geniş tamaşaçı kütləsinin izlədiyi "Miss Türkiyə 2022" yarışmasının nəticələri açıqlanıb. Türkiyənin ən gözəl qızı adına Nursena Say layiq görülüb. İkinci yerə isə Aleyna Şirin seçilib. Üçüncü yeri 1984-cü ildə Avropa gözəli seçilən Neşe Erberkin qızı Selin Erberk Qurdikyan tutub.

✍ ***Azad Əliyev***

ELAN

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. Hərrac 30.09.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: "Sabunçu Elmi İstehsalat Birliyi" TASC-yə məxsus 04/1 Lot üzrə İlmetsan qaldırıcı kran 1 ədəd 13608 man., 04/2 Lot üzrə 2 ədəd hava tutumu B-25 (v-8, 0m3) 1 ədəd 1764 man., üm/qiy: 3528 man., 04/3 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 10 ton)-9576 man., 04/4 Lot üzrə 3 ədəd körpülü kran KME (yük/q 5 ton) 1 ədəd 7560 man. üm/qiy: 22680 man., 04/5 Lot üzrə 1 ədəd körpülü kran KME (yük/q 7ton) 9072 man., 04/6 Lot üzrə 1 ədəd çatmalı kran KK-5(yük/q 5 ton) 11592 man.., 04/7 Lot üzrə 5 ədəd sınaq stendi 1 ədəd 176,40 man., üm/qiy: 882 man., 04/8 Lot üzrə 2 ədəd metal əridmə sobası 1 ədəd 8568 man., üm/qiy: 17136 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 10% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra şöbəsi. Hərrac 30.09.2022-ci il tarixdə saat 15:00-da növbəliklə Bakı ş., Yasamal r., C.Cabbarlı k., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) keçiriləcək.Hərraca çıxarılan əmlak: 05/1 Lot üzrə Abdullayev Şahmar Rəcəb oğluna məxsus Bakı şəh., Sabunçu ray., Ramana qəs., E.Məhərrəmli küç., dalan 6, ev 2, mənzil 12 (2 mərtəbəli binanın 2-ci mərtəbəsi, 3 otaq, üm/s 52,75 kv.m, təmirliliyi orta) - 17640 man., Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

Açıq hərrac: Hərracı keçirən "Regional İxtisaslaşdırılmış Hərrac Mərkəzi" MMC, hərraca sifariş verən icra qurumu Sabunçu rayon İcra Şöbəsi. 08/1 Lot üzrə Hərrac 14.10.2022-ci il tarixdə saat 15:00-da Bakı şəh., Yasamal ray., C.Cabbarlı küç., №44 (Caspian Plaza 1 korpus 6-cı mərtəbə) növbəliklə keçiriləcək.Hərraca çıxarılan əmlak: Rəsulov Orxan İmran oğluna məxsus Abşeron rayonu Masazır kəndində yerləşən ümumi sahəsi 0,03 ha olan torpaq sahəsinin 2/5 hissəsi ilkin satış qiyməti - 8000 manat. Qeyd: Hərracda iştirak üçün hərracın keçiriləcəyi tarixə 5 (beş) gün qalmışa qədər əmlakın ilkin satış qiymətinin 5% həcmində bank hesabına beh ödənilməlidir (bank hesabı: "Expressbank" ASC kod 510891; VÖEN 1500031691; m/h AZ11NABZ01350100000000036944; S.W.İ.F.T AZENAZ22) beh ödənildikdən sonra fiziki şəxslər şəx/vəs, hüquqi şəxs dövlət qeydiyyatı haqqında sənədi hərrac təşkilatına təqdim edərək iştirak bileti əldə etməlidir. Hərracda qalib olmadığınız halda ödədiyiniz beh 5 (beş) iş günü müddətində hesabınıza geri qaytarılır. Hərrac addımı elan edilmiş qiymətin 1%-dən az olmamalıdır. Əlaqə nöm: (012) 971-005; mob: (077)274-30-00 elektron ünvan office@e-herracmerkezi.az <mailto:office@e-herracmerkezi.az>; <https://www.facebook.com/>

"Nar" Ağdam və Füzuli məktəblərinə səfər edib

"Nar" 2-ci Qarabağ müharibəsi dövründə hərbi əməliyyatlar zamanı zərərçəkmiş məktəblərə dəstək məqsədilə birinci sinif şagirdlərinin görüşünə gedib. Füzuli və Ağdamda ümumilikdə beş tam orta məktəb olmaqla, "birinci"lərə mobil operator tərəfindən bütün dərs ləvazimatları hədiyyə edilib.

"Nar" artıq bir neçə ildir ki, korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycanın müxtəlif bölgələrində təhsil alan şagirdlərin məktəb həyatına ilk addımlarını dəstəkləyir. Məqsəd bölgələrdə təhsil alan şagirdlərin ailələrinə dəstək olmaq və şagirdlərə dərslərində daha da uğurlu olmaları üçün stimul verməkdir. "Nar"ın KSM strategiyası çərçivəsində həyata keçirdiyi digər layihələri ilə www.nar.az/projects/ səhifəsindən tanış ola bilərsiniz. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir.

"Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

GÜNÜN FOTOSU

İrəvanda Paşinyanın hərbi məzarlığa gətirdiyi əklillər aşırıldı

Gələn ay bal yarmarkası başlayır

Bədrəddin Həsrətov, Azərbaycan Arıçılar Assosiasiyasının prezidenti

Məhsuldarlığın aşağı olması bu yazın daha çox yağmurlu olması, soyuq keçməsi ilə əlaqədar idi.

▸▸ Səh. 7

STATİSTİKA

■ **Bu ilin yanvar-avqust aylarında Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsi yarım milyard dollara çatıb.**

Həmin dövrdə Azərbaycan bu ölkədən 163 milyon 342 min dollarlıq məhsul idxal edib. Ölkəmizin Ukraynaya ixrac etdiyi məhsulun dəyəri isə 333 milyon 30 min dollar olub. Xatırladaq ki, ötən il Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsi 922,5 milyon dollar təşkil edib. Ukrayna postsovet məkanında Azərbaycanla ticarət dövriyyəsinə görə Rusiyadan sonra ikincidir.

▸▸ Səh. 4

Səfirliklərimizi erməni hücumlarından necə qoruyaq

ELAN

Bakı şəhəri, Ceyhun Hacıbəyli küçəsi 194,mənzil 1-də yaşayan Müseyibova Rəfiqə Cavanşir qızının adına verilmiş M.a.00052 nömrəli maliyyə arayışı və M.00052 nömrəli müqavilə itirildiyi üçün etibarsız sayılır.